RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 69 (8662) ÇƏRŞƏNBƏ AXŞAMI, 6 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan regionun aparıcı siyasi və iqtisadi gücüdür

## İlham Əliyevin yeni inkişaf strategiyası respublikamızın Cənubi Qafqazın lideri kimi mövqeyini daha da möhkəmləndirəcək

İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirdi. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, diktə edir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini ortaya qoyur. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan Prezident İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

### Regionun gələcək inkişafını şərtləndirən layihələr sülhün təminatçısı olacaq

Bu fikirləri ilə İlham Əliyev qonşu ölkələrə regionun gələcək inkişafı üçün real imkanların mövcud olduğunu göstərərək qeyd edir ki, bütün bunlar, ilk növbədə, bölgədə uzunmüddətli sülhün təmin olunmasını şərtləndirir. Regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin gerçəkləşməsinə real zəmin yarada bilər.

Nikbinliyə səbəb olan amil odur ki, artıq qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. Qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması imkanlardan faydalanmaq bütün tərəflərə, ilk növbədə, iqtisadi dividendlər vəd edir. Bu da birmənalı şəkildə onu deməyə əsas verir ki, bu gün artıq regionun gələcək inkişafı üçün nadir imkanlar yaranıb.

Hətta işğalçı Ermənistan da proseslərin tərkib hissəsi ola bilər, əgər üzərinə düşən öhdəlikləri, yəni 10 noyabr Bəyanatının şərtlərini tam olaraq icra edərsə... Yox, əgər bu baş verməsə, Ermənistan növbəti dəfə tarixi şansı itirəcək və reallaşacaq layihələr yenə də bu ölkədən yan keçəcək. İşğalçı ölkə istənilən layihədən mənfəət görməyəcək. Ermənistan üçün daha da böyük problemlər yaranacaq.

Onu da qeyd edək ki, ötən həftə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-formal Zirvə görüşündəki çıxışında da Prezident İlham Əliyev Azərbaycanın Ermənistan üçün yarada biləcəyi növbəti imkanlardan söz açıb. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələrinin bütün türk dünyasını birləşdirəcəyini deyən Prezident vurğulayıb ki, bu, digər ölkələr, hətta, Ermənistan üçün də əlavə imkanlar yarada bilər. Çünki bu gün Ermənistanın nə Rusiya, nə də ki, İranla dəmir yolu əlaqəsi yoxdur. Azərbaycan hər iki dəmir yolu xəttinin yaradılmasını təmin edə bilər.

Ardı 3-cü səh.

## Z.R.Mikayılovun Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zaur Rauf oğlu Mikayılov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2021-ci il*

## Dünya bizdən öyrənir

Son illər mediada Azərbaycanın müxtəlif sahələrdəki uğurlu təcrübəsinin ayrı-ayrı ölkələrdə də öyrənilməsindən bəhs edilir. Bu, həm xarici, həm də yerli kütləvi informsiya vasitələrinə aid xəbər başlıqlarında çox tez-tez nəzərə çarpır. İnkişafın Azərbaycan modelinin üstünlükləri, dövlətimizin yaratdığı mütərəqqi nümunələr həm də əcnəbilərin ölkəmizə marağının getdikcə artmasında özünü göstərir.

Azərbaycan öz yüksəlişi ilə dünyanı təəccübləndirməyi bacarır. Müəllifi olduğu parlaq uğurlara diqqət və heyrət cəlb edir. Bu təcrübənin öyrənilməsinə, başqa ölkələrdə, cəmiyyətlərdə də bu unikal addımların tətbiqinə meyil yaradır. Bütün bunlar dünya inkişafının hərəkətverici qüvvələrindən birinə çevrilmək deməkdir. Tərəqqinin mərkəzində olmaqdır. Başqa sözlə desək, tarixin axarını müəyyənləşdirmək bacarığıdır. Bəli, Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin parlaq uğurları sayəsində tarixin axarını dəyişir. Bu axarı bütün bəşəriyyət üçün faydalı olan, davamlı inkişafa, insanların rifahına xidmət edən yeni bir məcraya yönəldir. Dünya bizə baxır.

Ardı 4-cü səh.

## Əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Siz Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Bu sahə prioritet sahələrdən biridir. Mən bu sahəyə həmişə çox böyük diqqət göstərmişəm. Bu gün, indiki şəraitdə bu sahənin əhəmiyyəti daha da artır. Son illər ərzində bu sahədə böyük işlər görüldü. Köhnə infrastrukturun təmiri ilə bağlı əsaslı işlər görülmüşdür. Çünki əsas infrastruktur sovet dövründə yaradılmışdı və vaxt keçdikcə yararsız vəziyyətə düşmüşdü, ona görə buna ehtiyac var idi. Eyni zamanda mənim təşəbbüsümlə bir neçə böyük su anbarı inşa edilmişdir. Əgər vaxtında bu su anbarları inşa edilməsəydi, bu gün meliorasiya sahəsində bizim böyük problemlərimiz ola bilərdi. Eyni zamanda içməli su təminatı da Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyəti tərəfindən həmişə diqqət mərkəzində olmuşdu. Cəmiyyət ölkəmizdə bir neçə içməli su layihəsini də icra etmişdir.

Bildirməliyəm ki, mənim təşəbbüsümlə inşa edilmiş Taxtakörpü su anbarı, eyni zamanda suvarma işləri ilə bərabər, Bakının da içməli su ilə təmin edilməsində önəmli infrastruktur obyektidir. Çünki Taxtakörpü-Ceyranbatan su kanalının çəkilməsi Ceyranbatan su anbarında suyun səviyyəsinin lazımi səviyyədə saxlanmasına şərait yaratmışdır. Əgər biz son iki ilin quraqlığını nəzərə alsaq, birmənalı şəkildə demək olar ki, vaxtilə Taxtakörpü su anbarı və su kanalı tikilməsəydi, Bakıda çox kəskin su problemi olacaqdı.

Ardı 2-ci səh.

## "İsgəndər" müəmması

### Suallar çox, cavab isə hələ ki, yoxdur

Azərbaycanın parlaq qələbəsi ilə nəticələnən Vətən savaşı dünyanın aparıcı hərbi mərkəzlərində müharibənin aparılmasına dair baxışları dəyişdirdi. Ordumuzun müasir hərbi texnologiyaların tətbiqi ilə həyata keçirdiyi döyüş əməliyyatları, ortaya qoyduğu nümunələr hazırda bir çox ölkələrdə öyrənilir.



### Ermənistanı alt-üst edən raket polemikası

44 günlük müharibədə düşmənin tankları, PDM-ləri, hərbi avtomobilləri, ən müasir hava hücumundan müdafiə sistemləri Azərbaycan Ordusunun hücumları nəticəsində metal parçalarına döndülər. Onlar böyük əksəriyyəti bir mərmi belə atılmadan beşinci nəsil müharibə aparan ordumuzun hədəfinə çevrildilər.

Məğlubiyyətdən sonra Ermənistanın baş nazirinə qarşı hücuma keçənlərin ittihamlarından biri "İsgəndər" raketləri ilə bağlı oldu. Məlum olduğu kimi, erməni generalları hələ bu müharibəyə qədər Azərbaycanı təhdid edərkən "İsgəndər" raketlərinə istinad edirdilər. Kapitulyasiyadan sonra keçmiş prezident Serj Sarkisyan Nikol Paşinyanı bu raketdən gec istifadə etməkdə günahlandırdı.

Ardı 7-ci səh.

## Zəngəzur dəhlizi həm də türk dünyasının birliyinə xidmət edəcək

### Dəhliz digər ölkələr üçün də əlavə əməkdaşlıq imkanları yaradacaq

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi regionda yeni reallıqlar yaradıb. Tarixi qələbəmiz, o cümlədən türk dünyasının daha da yaxınlaşmasına imkan verib.




Bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşü də göstərdi.

Prezident İlham Əliyevin 6 ölkə arasında əməkdaşlıq təklifi indi qlobal bir müstəviyə keçib. Belə ki, Türkiyədən Orta Asiyaya kimi geniş bir coğrafiyanı əhatə edən türkdilli ölkələrin əməkdaşlıq istəyi Mehri dəhlizinin əhəmiyyətini daha da artırır. Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayevin "Türk dünyasının gələcəyi - 2040" adlı sənədin hazırlanması barədə irəli sürdüyü təklif bu dəhlizin mahiyyətini bir daha vurğulayır.

Ardı 5-ci səh.

## Ermənistanda yoxsulluğun səviyyəsi kəskin artır

Ermənistanda iyun ayında keçiriləcək növbədənkənar parlament seçkiləri ölkədə həm siyasi aktivliyi, həm də gərginliyi artırıb.

Növbəti böyük mitinqə hazırlaşan müxalifət diqqəti hakimiyyətin sosial-iqtisadi siyasətinə yönəldib. "Vətənin qurtuluşu hərəkatı"nda yer alan qüvvələr açıq bəyan edirlər ki, hakimiyyətin səriştəsiz, şəxsi maraqlar üzərində qurulan iqtisadi siyasəti bu gün ölkəni uçurumun kənarına gətirib və tezliklə dəyişikliklər baş verməsə, Ermənistanın bir dövlət kimi məhvi qaçılmazdır.

Ağır sosial durumda olan bir qrup əhali bu məsələdə müxaliflərin mövqeyini birmənalı şəkildə dəstəkləyir. Bir qrup da var ki, yaranmış mövcud problemlərin kökündə keçmiş hərbi xuntanın yarıtmaz siyasətini görür. "4rd.am" saytının Yerevanda hazırladığı reportajda qeyd olunur ki, müharibədəki məğlubiyyət və pandemiya ölkəni dalana dirəyib.

Ardı 6-cı səh.

## Koronavirusla mübarizədə müəyyən tədbirlərin görülməsi zərurəti yaranıb

### Qlobal miqyasda artıq altıncı həftədir ki, COVID-19 infeksiyasına yoluxma halları artmaqdadır

Bir ildən artıq müddətdir ki, dünyanı çənginə alan, yoluxma həddi gah qalxan, gah da enən, insanları özünün təsiri altına salan, ondan qorunmayanları daha çox hədələyən COVID-19 pandemiyasının sonunun nə vaxt çatacağı haqlı olaraq hər kəsi narahat edir.

Bu az imiş kimi, son məlumatlar da ürəkaçan deyil: dünyada koronavirusa yoluxanların sayı 130 milyonu ötüb, baxmayaraq ki, koronavirus pandemiyası ilə mübarizədə yeni mərhələyə qədəm qoyulub. Ötən ilin dekabrından bir çox ölkələrdə koronavirus infeksiyasına qarşı peyvəndlənmə prosesinə başlanılıb. Təəssüf ki, hətta mutasiyaya uğrayan virus hələ də sürətlə yayılmaqdadır. Belə ki, ötən həftə dünyada koronavirusa 4 milyona yaxın yoluxma qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatının epidemioloji məlumatlarının bu baxımdan diqqətlə izlənilməsi də təsadüfi deyil. Orada göstərilir ki, qlobal miqyasda altıncı həftədir ki, COVID-19 infeksiyasına yoluxma halları artmaqda davam edir. Ötən həftənin yayılma göstəriciləri əvvəlki ilə müqayisədə 14 faiz çoxdursa, demək, nəinki arxayınçılığa yol vermək olmaz, əksinə, müəyyən tədbirlərin görülməsi zərurəti ortaya çıxır.

Ölkəmizdə də bu təəssüfləndirici hallarla bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən yenidən bəzi qərarların qəbulu başadüşüləndir. Məsələn, artıq Təhsil Nazirliyinin qərarı ilə orta məktəblərdə aprelin 5-dən etibarən disdant təhsilə keçilib.

ÜST də bu günlərdə koronavirus epidemiyasının yaranma səbəblərinə dair hesabatını açıqlayıb. Həmin hesabatda epidemiyanın mənbəyinə dair ehtimallara aydınlıq gətirilib.

Ardı 6-cı səh.

# Əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik



Əvvəli 1-ci səh.

Taxtakörpü su anbarından sonra Şəmkirçay su anbarı inşa edilmişdir. Beləliklə, ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilmişdir. Artıq bu, özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında göstərir.

Meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti var. Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər biz, əlbəttə ki, suyun səmərəli istifadəsindən də həmişə narahat idik. Bu sahədə əldə edilmiş uğurlar var, eyni zamanda, çətinliklər var, çatışmazlıqlar var. Bunlar aradan qaldırılmalıdır. Amma bütövlükdə son illər ərzində kənd təsərrüfatının dayanıqlı inkişafı, o cümlədən su təminatının səmərəliliyi ilə bilavasitə bağlıdır. Biz son illər ərzində vaxtilə suvarılmayan torpaqlara su gətirmişik. Bu torpaqların həcmi 100 min hektarlarla ölçülür. Vaxtilə, ümumiyyətlə, su görməyən torpaqlara, yaxud da ki, qismən suvarılan torpaqlara suyun verilməsi bu bölgələri canlandırdı və 100 minlərlə hektar torpağa su verildi.

Bu gün biz kənd təsərrüfatının müxtəlif sahələrində bu siyasətin təzahürlərini görürük. Bizim bəzi iri fermer təsərrüfatlarımızda, taxılçılıqla məşğul olan təsərrüfatlarda məhsuldarlıq bir hektardan 50, 60, hətta 70 sentnerə çatır. Bu, Avropanın aparıcı ölkələrinin səviyyəsinə uyğundur və ona bərabərdir. Burada, əlbəttə ki, təkcə suvarma işləri yox, eyni zamanda digər tədbirlərin də xüsusi çəkisi var. Ancaq suvarma olmadan məhsuldarlıqdan söhbət gedə bilməz.

Biz son illər ərzində Azərbaycanda pambıqçılıq sahəsini demək olar ki, dirçəltmişik. Təqribən 5-6 il bundan əvvəl pambıqçılıq tamamilə məhv olmuşdu və ölkədə cəmi 20-30 min ton pambıq yığılırdı. Görülmüş tədbirlər nəticəsində biz keçən il rekord göstəriciyə nail olduq - 330 min tondan çox pambıq yığıldı və hektardan məhsuldarlıq 33 sentnerdən çoxdur. Yəni əgər sovet dövrünün ən uğurlu illəri ilə müqayisə etsək, deyə bilərik ki, ancaq sovet dövründə cəmi iki ildə hektardan məhsuldarlıq 33 sentnerdən çox olmuşdur. Yəni bütün bunların təməlində məqsədyönlü siyasət və aidiyyəti qurumların koordinasiyalı şəkildə fəaliyyətinin təkmilləşməsi dayanır. Kənd təsərrüfatında məhsuldarlığın artırılması bizim üçün bundan sonra da prioritet məsələlərdən biri olacaq.

Biz indi ərzaq təhlükəsizliyimizi təmin etmək üçün əməli addımlar atırıq. Ölkəmizin imkanları, gözəl iqlim, bir neçə iqlim zonasının mövcudluğu bizə imkan verir ki, bir çox məhsullar Azərbaycanda yetişdirilsin. Məhsuldarlığın artırılması, əlbəttə ki, bu işlərə daha böyük təkan verəcək. Biz nəzərə almalıyıq ki, Azərbaycan dövləti sürətlə inkişaf edir, tələbat artır, əhali artır. Sovet İttifaqı dağılanda Azərbaycan əhalisi 7 milyon idisə, bu gün 10 milyondan çoxdur. Deməli, istehlak artır. Daxili istehlakı təmin etmək və ixrac imkanlarımızı artırmaq üçün əlbəttə ki, qeyri-neft sektoru sahəsində kənd təsərrüfatının xüsusi yeri vardır. Təbii ki, suvarma aparılmadan, bu sahədə işlər düzgün istiqamətdə təşkil olunmadan biz hər hansı bir uğurdan söhbət apara bilmərik. Əldə edilmiş nailiyyətlərlə əlaqədar çox danışmaq olar, mən, sadəcə, əsas məqamları qeyd etmişəm.

Eyni zamanda sizin qarşınızda duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılmasıdır, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsidir, müasir texnologiyaların ölkəmizə gətirilməsidir. Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik. Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir. Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir. Uçotun olmaması əlbəttə ki, bizim işimizi çətinləşdirir. Ona görə tam uçot aparılmalıdır. Bizim su anbarlarımıza daxil olan və oradan çıxan suyun həcmi yaxın aylara qədər uçota alınmırdı. Düzgün təhlil aparmaq, proqnoz vermək üçün imkanımız yox idi. Ona görə itkilərin azaldılması ən vacib problemlərdən biridir.

Kanalların təmiri və yenidən qurulması da önəmli vəzifələrdən biridir. Sovet vaxtında çəkilmiş kanalların böyük əksəriyyəti torpaq kanallar idi. Onların böyük hissəsi bu gün də fəaliyyətdədir. Əlbəttə ki, torpaq kanallar suyun istənilən həcmdə ötürülməsinə imkan vermir, itkilər, o cümlədən buna görə baş verir, eyni zamanda torpağın şoranlaşmasına da gətirib çıxarır. Ona görə də biz canımızı torpaq kanallardan qurtarmalıyıq. Ancaq onun əvəzinə hansı texnologiyalar gətiriləcək, bunu artıq siz müəyyən etməlisiniz. Dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalıdır, iqlimi bizim iqlimimizə oxşar olan ölkələrin təcrübəsindən faydalanmalıyıq. Elə ölkələr var ki, orada su resursları bizimkindən də azdır, ancaq məhsuldarlıq qat-qat çoxdur. Ona görə bütün bunlar gərək dəqiq araşdırılsın, düzgün fəaliyyət planı tərtib edilsin, lazım olarsa, Dövlət Proqramı qəbul olunsun ki, biz bundan sonrakı illərdə meliorasiya və suvarma sahəsində dünyanın ən müasir prinsiplərini ölkəmizdə tətbiq edək.

Bir müddət bundan əvvəl bu məsələ araşdırılarkən göstəriş vermişdim ki, yeni kiçik su anbarlarının yaradılması ilə bağlı təkliflər hazırlanıb təqdim olunsun. Belə təkliflər verildi. Mən prinsip etibarilə bu təklifləri təsdiqlədim və 10 yeni su anbarının tikintisi nəzərdə tutulur. Siz bir daha bu məsələlərə baxın, bu məsələləri təhlil edin. Çünki hər bir su anbarının tikintisi böyük vəsait tələb edir. Ondan sonra kanallar çəkilməlidir, digər tədbirlər görülməlidir. Bütün bu vəsait dövlət büdcəsi tərəfindən təmin edilir. Ancaq biz baxmalıyıq ki, bu sahəyə qoyulan vəsait nəticə ilə nə qədər uzlaşır. Qoyulmuş bu vəsaitin müqabilində biz hansı nəticəni əldə edirik və edəcəyik. Çünki bu, düzgün hesablanmasa, bizim işimiz heç vaxt səmərə verməyəcək. Bu sahənin inkişafı dövlətin özəl sektora göstərdiyi növbəti qayğının təzahürüdür. Çünki dövlət bütün xərcləri öz üzərinə götürür ki, fermerlər, kəndlilər daha yaxşı məhsul götürsünlər, özləri üçün daha yaxşı şərait yaratsınlar, onların həyat səviyyəsi qalxsın. Nəzərə alsaq ki, kənd təsərrüfatı sahəsində fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar, bu sahənin inkişafı, ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasına xidmət edir. Bu, Azərbaycanda artıq bir növ sosial sahə kimi qəbul olunur. Ancaq əgər biz inkişaf etmiş ölkələri götürsək görərik ki, orada belə deyil - suyun hər bir litri hesablanır, hər yerdə sayğaclar qoyulur, uçot düzgün aparılır və qoyulmuş investisiyanın müqabilində hansı nəticə əldə olunacaq bəri başdan hesablanır. Bizdə də belə olmalıdır.

Biz bundan sonra da kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızı dəstəkləyəcəyik. Artan subsidiyalar bunu bir daha göstərir. Bizim niyyətimiz, siyasətimiz dəyişməz olaraq qalır. Ancaq bununla bərabər, kənd təsərrüfatı ilə məşğul olan hər bir adam öz məsuliyyətini də dərk etməlidir. Təhlil aparılarkən biz bir şeyə də rast gəldik - suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır. Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlilərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılmışdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır. Mən göstəriş vermişdim ki, su xətləri üzrə həm vizual monitorinq aparılmalıdır, yəni, yerində, eyni zamanda müasir müşahidə sistemləri - kameralar quraşdırılmalıdır və bu qanunsuz birləşmələrə son qoyulmalıdır.

Çatışmazlıqlar çoxdur və siz indi fəaliyyət dövrünüzdə, əlbəttə ki, bütün bu işləri təhlil edəcəksiniz. Yenə də deyirəm, bu sahə prioritet sahə olaraq qalır və qalacaq. Ancaq burada yeni yanaşma olmalıdır, müasir tələblərə uyğun yanaşma. Hesab edirəm ki, siz bütün bu məsələləri qısa müddət ərzində bir daha təhlil edib, konkret təkliflər paketi ilə çıxış edəcəksiniz.

Digər önəmli məsələ azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi ilə bağlıdır. Azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimiz mövcuddur və su mənbələrimiz orada formalaşır. Biz uzun illər ərzində, 30 ilə yaxın müddətdə bu imkanlardan məhrum idik. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini, o cümlədən bu sahədə də aparırdı və bizə qarşı ekoloji terror təşkil edilmişdir. Meşələrin qırılması, qoruqların məhv edilməsi - 54 min hektar meşə sahəsi ermənilər tərəfindən kəsilib, dağıdılıb, talanıb, oğurlanıb və bu, böyük cinayətdir. Dəymiş bütün ziyan indi hesablanır, o cümlədən bu ziyan da hesablanacaq. Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların nəzarətində idi. Bu iki su anbarını 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tikdirmişdir. Onun təşəbbüsü ilə bu su anbarları tikilmişdir ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Sərsəng su anbarının əsas məqsədi, funksiyası sadaladığım və digər rayonlarımıza suyun verilməsi idi. O vaxt bu mənbədən 100 min hektara yaxın torpağa su verilirdi, eyni zamanda, Suqovuşandan da. Lakin o, kiçikhəcmli su anbarıdır. Sərsəng su anbarında 500 milyon kubmetrdən çox su toplanırdı. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalmışdıq. Biz o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz Suqovuşan qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yaranıb ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın. Ancaq o rayonlara gedən kanallar uzun illər ərzində istifadəsiz qalıb. Təhlil aparılmalıdır, onların vəziyyəti nə yerdədir, təmirə ehtiyac varsa, bu işlərə də baxılmalıdır ki, biz vaxt itirmədən suyu sahə başına, vətəndaşlarımızın sərəncamına gətirək.

Ağdam rayonunda Xaçınçay su anbarı, Füzuli şəhərinin, daha doğrusu, dağıdılmış şəhərin yaxınlığında su anbarı yerləşir. Artıq mənim göstərişimlə oraya qruplar ezam edilmişdir. Azad edilmiş torpaqlarda digər su anbarları da var. Onların bütün parametrləri təhlil edilməlidir. Əlbəttə ki, biz bu su anbarlarından səmərəli şəkildə istifadə edəcəyik. Azad olunmuş torpaqlara vətəndaşlarımız qayıdandan sonra, əlbəttə ki, bu, onlar üçün əlavə imkanlar yaradacaqdır.

Bununla paralel olaraq, azad edilmiş torpaqlarda bizim böyük çay resurslarımız var. Biz bundan da məhrum idik. Bu gün azad edilmiş torpaqlarda formalaşan çaylarımız bizim əsas çaylarımızdır. Tərtərçay Kəlbəcər rayonu ərazisində formalaşır. Amma mənfur düşmən bizi Tərtərçayın suyundan məhrum edirdi. Hətta Qarabağ bölgəsinə dəfələrlə səfərim zamanı mən bu problemlə maraqlanarkən gördüm ki, bu, böyük problemlər yaradır. Misal üçün, Tərtərin suyunu tam kəsirdilər. Tərtərçay bir çox yerlərdə demək olar ki, qurumuşdu. İndi biz Tərtərçaya qayıtmışıq, onun mənbəyinə qayıtmışıq. Bazarçay - ona Bərgüşad çayı da deyirlər, Həkəri çayı, Oxçuçay - bir çox çaylar, 10-dan çox çay orada formalaşır. Onların potensialı təhlil edilməlidir. Çayların məcrası ilə bağlı düzgün təhlil aparılmalıdır, biz bu çaylardan necə səmərəli istifadə edək. Onların bir çoxu Araz çayına axır.

Azad edilmiş torpaqlarda su anbarlarının tikintisinə ehtiyac varmı, yoxmu, bu məsələyə də mütləq baxılmalıdır. Əlbəttə ki, azad edilmiş torpaqlarda bizim ən böyük su mənbəyimiz qonşu İranla sərhəddə yerləşən Xudafərin və Qız Qalası su anbarlarıdır. Bunlar çox böyük su anbarlarıdır. Xudafərin su anbarının həcmi 1,6 milyard kubmetrdir, çox böyük su anbarıdır. Bu su anbarından istifadə etmək üçün əlbəttə ki, əlavə infrastruktur layihələri icra edilməlidir. İlk növbədə, kanallar çəkilməlidir ki, azad edilmiş torpaqlara - Zəngilan, Cəbrayıl, Qubadlı və digər bölgələrə biz bu su anbarlarından su götürüb, ondan səmərəli şəkildə istifadə edə bilək. Bu, bizim böyük potensialımızdır.

Həm azad edilmiş torpaqlarda, həm də ölkəmizin digər yerlərində bizim bütün su ehtiyatlarımızın potensialı dəqiq təhlil olunmalıdır. Bu su ehtiyatlarından maksimum səmərə ilə istifadə etmək üçün konkret proqramlar və təkliflər təqdim edilməlidir. Beləliklə, bu sahədə görüləcək işlər çoxdur, həm azad edilmiş torpaqlarda, həm də digər ərazilərdə. Əsas prinsip müasirlik, ekoloji təhlükəsizlik və maksimum səmərəlilik olmalıdır ki, Azərbaycan vətəndaşları, kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlar öz həyatlarında müsbət dəyişiklikləri görsünlər. Əminəm ki, bu, belə də olacaq.

Yenə də deyirəm, son illər ərzində bu sahə mənim tərəfimdən həmişə prioritet sahə kimi qiymətləndirilmişdir və bu sahənin inkişafı üçün çox böyük işlər görülmüşdür, dövlət büdcəsindən böyük həcmdə vəsait ayrılmışdır. Əgər bu işlər görülməsəydi, bu gün biz çox böyük problemlərlə üzləşmiş olardıq. Ancaq əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, biz bu sahəyə müasir menecment gətirməliyik. Mən sizi bu vəzifəyə təyin edərkən məhz bu amili nəzərə almışam ki, hər bir yerdə müasir menecment olmalıdır, idarəetmə olmalıdır. Son vaxtlar apardığım kadr islahatları onu göstərir. Harada ki, müasir menecment, müasir idarəetmə, dürüstlük, təmizlik, vicdan varsa, orada nəticə də olacaqdır. Sizi bu vəzifəyə təyin edərkən bu tövsiyələrimi verərək əmin olduğumu bildirmək istəyirəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri **Zaur MİKAYILOV** dedi:

- Möhtərəm cənab Prezident, çox təşəkkür edirəm. Bu təyinat mənim üçün çox böyük şərəf, eyni zamanda çox böyük məsuliyyətdir. Bu etimadınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, bu etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm və Vətənimiz üçün, ölkəmiz üçün canla-başla çalışacağam.

## Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat, rabitə və yüksək texnologiyaların tətbiqi məsələlərinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupu həmin ərazilərdə beynəlxalq standartlara uyğun nəqliyyat və rabitə infrastrukturunun qurulması, müasir çağırışlarla uzlaşan yüksək texnologiyaların tətbiqi, o cümlədən həmin ərazilərdə nəqliyyatın bütün növlərindən rahat və təhlükəsiz istifadə olunması, tranzit nəqliyyat əlaqələrinin bərpası və bu sahədə regional əməkdaşlığın genişləndirilməsi, magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulması, orada yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında telefon, internet, radio-televiziya yayımı, poçt xidmətlərinin göstərilməsi, respublikamızın efir təhlükəsizliyinin təmin edilməsi, həmçinin “ağıllı” şəhər və kənd konsepsiyalarının tətbiqi məsələlərinin təmin edilməsi üzərində işləyir.

İşçi Qrupun rəhbəri, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin sədrliyi ilə keçirilən iclasda Müfəssəl Sahəvi Plana daxil olan tədbirlərin icrası, o cümlədən avtomobil və dəmir yollarının, hava limanlarının layihələndirilməsi və tikintisi, rayonlararası magistral kabel xətlərinin çəkilməsi və rabitə şəbəkələrinin qurulması üzrə görülən işlər barədə aidiyyəti qurumların məlumatları dinlənib, aparılan işlər müzakirə edilib, mövcud çətinliklər və problemlər də qeyd edilməklə, görüləcək işlər üçün istiqamətlər müəyyənləşdirilib, prioritet layihələrin hazırlanması və icrasının nəzarətdə saxlanması qərara alınıb. Həmçinin işğaldan azad olunan ərazilərə qayıdış və məskunlaşma tədbirləri çərçivəsində işlərin qarşılıqlı əlaqəli təşkili, təkrarçılığa yol verilməməsi, dövlət vəsaitlərinə qənaət edilməsi və istehlakçı məmnuniyyəti prinsipləri nəzərə alınmaqla xidmətlərin vahid mərkəzdən göstərilməsi məqsədilə dövlət qurumları və xidmət təşkilatlarının optimal yerləşdirilməsi məsələsi müzakirə edilib.

İclasda, eyni zamanda “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı” layihəsi müzakirə edilərək, sənədlə bağlı rəy və təkliflər müəyyənləşdirilib.

İşğaldan azad olunan ərazilərdə quruculuq və bərpa işlərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən əsas istiqamətlər və verilən tapşırıqlar, məskunlaşma ilə bağlı gələcək tələbat və perspektivlər, yeni çağırışlar və konsepsiyalar nəzərə alınmaqla icra edilməsi, bu məqsədlə bütün qurumlar tərəfindən görülən işlərin İşçi Qrupu vasitəsilə İdarələrarası Mərkəzlə əlaqələndirilməklə icra edilməsinin, hər bir qurum və nümayəndə tərəfindən bu proseslərdə aktiv və qarşılıqlı əməkdaşlıq şəraitində iştirakın təmin edilməsi və görülən işlərə töhfə verilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Azərbaycan Xarici İşlər Nazirliyi Beynəlxalq Mina Xəbərdarlığı Günü ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) 4 aprel - Beynəlxalq Mina Xəbərdarlığı Günü ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib.

Bəyanatda deyilir: “Bu gün Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü kimi qeyd olunur. Bununla əlaqədar olaraq, Azərbaycan işğaldan azad edilmiş ərazilərinin Ermənistan tərəfindən kütləvi minalanması və Ermənistan hökumətinin bölgənin təhlükəsizliyini təmin etmək üçün mina yerləri ilə bağlı məlumatı bölüşməkdən imtina etməsindən qaynaqlanan təhlükə ilə bağlı ciddi narahatlığını bir daha bəyan edir.

Azərbaycan azad edilmiş ərazilərinin kütləvi minalanması problemi ilə üzləşmişdir və bu, münaqişədən sonrakı dövrdə həm hərbi, həm də mülki şəxslərin həyatı, təhlükəsizliyi və yaşayış imkanları üçün ciddi təhlükədir.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 30 illik işğalı dövründə Ermənistanın bu ərazilərə məqsədli şəkildə minalar yerləşdirməsi Azərbaycan hərbçiləri və mülki vətəndaşları arasında çox sayda itkiyə səbəb olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geri çəkilmə mərhələsində də Ermənistan Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaq üçün məqsədli şəkildə həmin ərazilərdə kütləvi şəkildə minalar yerləşdirib.

Ermənistan beynəlxalq öhdəliklərini açıq şəkildə pozaraq, minalanmış ərazilərin yeri barədə məlumatı təqdim etməkdən imtina edir. Bu, beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulmasıdır.

10 noyabr 2020-ci il tarixində Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Ermənistan və Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoyulduğunu elan edən üçtərəfli Bəyanat imzalandığı vaxtdan bu günədək, işğaldan azad olunmuş ərazilərimizdə mina partlaması nəticəsində aralarında 14 nəfəri mülki şəxs olmaqla, 20 nəfər Azərbaycan vətəndaşı həlak olub. Eyni zamanda digər insanları qorumağa çalışan Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin (ANAMA) cəsur əməkdaşları da daxil olmaqla, 85 vətəndaşımız (o cümlədən 16-sı mülki şəxs) ağır yaralanıb.

Bu ərazilərin kütləvi minalanması Azərbaycan hökumətinin başlatdığı bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi şəkildə mane olur. Ən əsası isə bu, yüz minlərlə məcburi köçkünün öz evlərinə təhlükəsiz və layiqli şəkildə qayıtmaq kimi ayrılmaz hüququnun həyata keçirilməsinə mənfi təsir göstərir. Təxminən otuz ildir ki, evlərindən didərgin düşmüş ailələr, ərazilər minalardan təmizlənmədiyi üçün hələ də təhlükəsiz şəkildə öz evlərinə geri dönə bilmirlər.

Ermənistanın Azərbaycan torpaqlarını qanunsuz şəkildə işğalı dövründə, habelə bu torpaqlardan çıxmağa məcbur edilən zaman həmin ərazilərdə məqsədli şəkildə minaların yerləşdirilməsi, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının öz torpaqlarına qayıtmasına və bu insanların fundamental hüquqlarının həyata keçirilməsinə maneə olmaq və mümkün qədər çox insanın lüzumsuz əzab çəkməsinə nail olmaq istəyən Ermənistanın niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın bu davranışı regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir.

Azərbaycan dəfələrlə beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən basdırılan minaların insanların həyatını itirməsinə səbəb olması faktını qınamağa çağırıb. Azərbaycan Mina Xəbərdarlığı Günündə müraciətini bir daha təkrar edir və beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə, məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına mane olmasına və minaların yeri barədə məlumatı təqdim etməkdən imtina etməsinə göz yummamağa çağırır.

Biz Ermənistandan beynəlxalq hüquq qarşısında tutduğu öhdəlikləri və insan həyatını qorumaqla bağlı mənəvi borcunu yerinə yetirməsini tələb edirik. Azərbaycan sülhü və cavabdehliyi təmin etmək üçün bütün mövcud və lazımi hüquqi tədbirləri görəcəkdir”.

# İraq parlamentinin nümayəndə heyəti Milli Məclisdə olub



Aprelin 5-də Milli Məclisdə ölkəmizdə səfərdə olan İraq Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Şerko Məhəmməd Saleh Əhməd Kadir Mir Vaisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli ölkələrimiz arasındakı tarixi dostluq münasibətlərindən danışıb. Bildirilib ki, ötən illər ərzində ölkələrimiz arasında münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edib. Azərbaycan daim İraqın ərazi bütövlüyünü dəstəkləyib, İraq da beynəlxalq təşkilatlarda Azərbaycanı dəstəkləyən mövqe nümayiş etdirib.

Söhbət zamanı parlamentlərarası münasibətlərə də toxunularaq bildirilib ki, parlamentlərarası dostluq qruplarının fəaliyyəti iki ölkə arasında münasibətlərin daha da inkişafına xidmət edir.

Səmimi qonaqpərvərliyə görə təşəkkürünü ifadə edən İraq parlamentinin Xarici əlaqələr komitəsinin sədri Şerko Məhəmməd Saleh Əhməd Kadir Mir Vais Azərbaycan tərəfinə müxtəlif məsələlərdə, o cümlədən terrorizmə qarşı, həmçinin kovonavirusla mübarizədə göstərilən köməyə görə təşəkkürünü bildirib.

İraq parlamentinin fəaliyyətindən danışan qonaq diqqətə çatdırıb ki, hazırda İraqda sabitlik mövcuddur. Bu sabitliyin təmin edilməsində parlamentin qəbul etdiyi qanun və qərarlar mühüm rol oynayır.

Görüşdə çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Rəşad Mahmudov, İraq parlamentinin İnsan hüquqları komitəsinin sədri Arşed Rəşad Fath Allah əl-Salihi, millət vəkili xanım Nisrin Fadil Raham və başqaları qarşılıqlı əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər.

Görüşdə Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İlham Məmmədov, işçi qrupunun üzvü Cavanşir Paşazadə, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, hər iki ölkənin müvəqqəti işlər vəkilləri Nəsir Məmmədov, Maki Ressan Al-Mamori və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib

Aprelin 5-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn formatda iclası keçirilib. İclasda qanunvericilikdə dəyişikliklərlə bağlı 4 qanun layihəsinə baxılıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəlikdəki "Prokurorluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məsələlərin bir-biri ilə bağlı olduğunu bildirib.



Hər iki qanun layihəsini təqdim edən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova dəyişikliklərin ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının qanunvericilik bazasının möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb. O bildirib ki, qanunlara ediləcək bu dəyişikliklər prokurorluq orqanlarının maddi-texniki bazasının artırılmasına, işçilərin maddi təminatının yaxşılaşdırılmasına, peşəkarlığının yüksəldilməsinə yönəldilib. A.Osmanova layihələrdə irəli sürülən stimullaşdırıcı tədbirlərin həm beynəlxalq, həm də Azərbaycan təcrübəsində mövcud olduğunu, hazırda qəbul edilmiş dövlət proqramı və strategiyalarında nəzərdə tutulduğunu qeyd edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə üzvləri Tahir Kərimli, Nizami Səfərov və Elşən Musayev qanun layihələri ilə bağlı fikirlərini səsləndiriblər. Müzakirələrin sonunda hər iki məsələ birinci oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

Sonra "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə (ikinci oxunuş) məsələyə baxılıb. Komitə üzvü Kamal Cəfərov məlumat verib ki, qanun layihəsi kənd təsərrüfatı sahəsində subsidiyaların verilməsi sahəsində korrupsiya hallarının və dövlət tərəfindən aqrar sektora əvəzsiz olaraq ayrılan maliyyə vəsaitlərinin təyinatına uyğun istifadə edilməməsinin qarşısını almaq üçün nəzərdə tutulub. Komitə qanun layihəsini ikinci oxunuşda parlamentin plenar iclasına tövsiyə edib.

Gündəliyin dördüncü məsələsi - "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) komitə sədri Əli Hüseynli məlumat verib. Təqdim olunan qanun layihəsinin 2019-cu il noyabrın 29-da Vergi Məcəlləsində edilən dəyişikliyə uyğunlaşdırma xarakteri daşıdığını deyən komitə sədri bununla qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borclarını ödəyə bilməyən sahibkarlara dövlətin maliyyə amnistiyası verdiyini bildirib. Sonra qanun layihəsi üçüncü oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasında komitə sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Fəzail Ağamalı, Əminə Ağazadə, Sabir Hacıyev, Nurlan Həsənov, Vüqar İskəndərov, Erkin Qədirli, Azay Quliyev, Cəbi Quliyev, Bəhruz Məhərrəmov, Madər Musayev və digər rəsmi şəxslər də iştirak ediblər.

# Azərbaycan ilə İraq arasında əməkdaşlığın genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb

Xarici işlər naziri Ceyhun Bayramov aprelin 5-də Azərbaycanda səfərdə olan İraq Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Şerko Məhəmməd Saleh Əhməd Kadir Mir Vaisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan nazir Ceyhun Bayramov ölkələrimiz arasında münasibətlərin tarixi, mədəni və dini bağlar üzərində inkişaf etdiyini vurğulayaraq, həm ikitərəfli, həm də çoxtərəfli çərçivələrdə əməkdaşlığın həyata keçirildiyini bildirib. Hazırkı səfərin ölkələrimizin parlamentləri arasında əlaqələrin genişləndirilməsi ilə yanaşı, ümumilikdə, Azərbaycan-İraq münasibətlərinin inkişafı baxımından faydalı müzakirələrin aparılması üçün imkanlar yaratdığını bildirib.



İraq Parlamentinin Xarici əlaqələr komitəsinin sədri ölkələrimiz arasında mövcud olan müsbət əlaqələri qeyd edərək, beynəlxalq səviyyədə Azərbaycanın İraqa verdiyi dəstəyi, eləcə də Azərbaycan tərəfindən göstərilən humanitar yardımı məmnunluqla qeyd edib. Münaqişələrin həlli ilə bağlı İraqın beynəlxalq hüququn prinsiplərini hər zaman rəhbər tutduğu vurğulanıb.

İraqın ölkəmizin ərazi bütövlüyünə hər zaman dəstək verdiyinə görə qarşı tərəfə təşəkkürünü bildirən nazir Ceyhun Bayramov Azərbaycan ərazilərinin bir hissəsinin 30 ilə yaxın davam edən işğalı dövründə Ermənistan tərəfindən törədilən dağıntılar, qeyri-qanuni fəaliyyət, çoxsaylı müharibə cinayətləri, 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri barədə qarşı tərəfi məlumatlandırıb. Ermənistanın həm işğal dövründə, həm də bu əraziləri məcburən tərk etmə mərhələsində azad olunan torpaqları geniş şəkildə mina ilə zəhərlədiyi, hərbi əməliyyatların dayandırılmasına rəğmən, minaların yerləri ilə bağlı məlumatı hələ də Azərbaycan tərəfinə təqdim etmədiyi və beləliklə, beynəlxalq humanitar hüququ kobud şəkildə pozmaqda davam etdiyi İraq parlamentarilərinin diqqətinə çatdırılıb. Dünya dövlətlərinin bu məsələyə münasibətdə səssiz qalmamaları və Ermənistana ciddi təsir etmələrinin vacibliyi vurğulanıb.

Tərəflər həmçinin ikitərəfli əlaqələrin inkişaf etdirilməsi perspektivləri, o cümlədən humanitar, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları üzrə fikir mübadiləsi aparıblar.

# Beynəlxalq təşkilatlar minalanmış ərazilərin xəritəsini vermək üçün Ermənistana təzyiq göstərməlidir

## Beynəlxalq Mina Xəbərdarlığı Günü ilə əlaqədar ADA Universitetində keçirilmiş tədbirdə işğaldan azad olunmuş ərazilərdəki mina təhlükəsindən bəhs olunub

Aprelin 5-də Beynəlxalq Mina Xəbərdarlığı Günü ilə əlaqədar ADA Universitetində tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, BMT İnkişaf Proqramının rezident nümayəndəsinin müşaviri və xarici ölkələrin Azərbaycandakı səfirləri iştirak ediblər.




Tədbiri açan universitetin prorektoru Fariz İsmayılzadə mövzunun Azərbaycan üçün aktual olduğunu və böyük əhəmiyyət daşıdığını bildirib.

Sonra çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev diqqətə çatdırıb ki, BMT-nin müvafiq qətnaməsi ilə qeyd olunan 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü diqqəti, ilk növbədə, mülki əhalinin təhlükəsizliyinə, həmçinin minalanmış ərazilərdə iqtisadi, sosial təsirlərin aradan qaldırılmasına yönəldir.

"Təəssüf ki, Azərbaycan hazırda minaların təsirinə məruz qalan və ondan əziyyət çəkən ölkələr sırasındadır. Otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqları minalarla dolu bir məkana çevrilib. Bu amil müharibədən sonra daha çox aktuallıq kəsb edib. İşğaldan azad olunmuş ərazilərimizdə basdırılmış hər bir mina istənilən halda Azərbaycan vətəndaşlarına və mülki əhaliyə qarşı təhlükədir. Bu, Ermənistanın hərbi cinayətlərinin təzahürü olmaqla, eyni zamanda beynəlxalq humanitar hüquq çərçivəsində üzərinə götürdüyü öhdəliyə ziddir", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan tərəfi Azərbaycana minalanmış ərazilərin xəritəsini vermir və beynəlxalq humanitar hüquqa əsasən, bu, Azərbaycanın mülki əhalisinin hüquqlarını kobud şəkildə pozur. Bu, Ermənistanın etnik təmizləmə siyasətinin bir hissəsidir. Ermənistan Azərbaycan ərazilərinin işğalı zamanı da azərbaycanlı əhaliyə qarşı bu cür cinayətlər törədib.

Prezidentin köməkçisi işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi istiqamətində işlərin aparıldığını bildirərək deyib ki, Ermənistan minalanmış ərazilərin xəritələrini verməməklə iki ölkə arasında etimadın yaranmasına ziyan vurur və regional əməkdaşlığa mane olur: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minalarla bərabər, təmizlənməsi kifayət qədər çətin olan tələlər də qurulub. Bu da minalardan təmizləmə əməliyyatına mane olur. İşğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi Azərbaycan hökuməti üçün prioritetdir və bərpa prosesinin vacib bir hissəsidir".



Ərazilərin minalardan təmizlənməsi prosesinin kifayət qədər bahalı və çətin olduğunu söyləyən Hikmət Hacıyev vurğulayıb ki, hazırda Azərbaycan hökuməti üçün prioritet olan bu məsələ müxtəlif qurumların birgə fəaliyyət göstərdiyi istiqamətdir. Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin strukturu dəyişdirilib. İndi texniki baxımdan onun potensialının artırılması prosesi həyata keçirilir.

"Minalanmış ərazilərin xəritələrini gizlətməklə Ermənistan həm də azərbaycanlıların doğma torpaqlarına qayıdışının ləngiməsinə səbəb olur. Bu, Azərbaycan hökumətinə bərpa proseslərini həyata keçirməyə də maneçilik törədir", - deyə Prezidentin köməkçisi qeyd edib.

BMT İnkişaf Proqramının rezident nümayəndəsinin müşaviri Çaru Bist çıxış edərək bildirib ki, bugünkü tədbir minaların və partlamamış sursatların təhlükəsinin aradan qaldırılmasına sadiqliyi ifadə etmək üçün vacibdir. Həmçinin minaların təhlükəsinə dair məlumatlandırmanın artırılması çox mühüm bir fəaliyyətdir. Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Gününü minaların yalnız fərdi həyatlara yaratdığı təhlükənin qarşısını almaq üçün deyil, həm də onun iqtisadi inkişafa vurduğu ziyanın qarşısının alınması üçün qeyd edirik.

Vurğulanıb ki, minaların və partlamamış sursatların yaratdığı təhlükə aradan qaldırılmalıdır. Yalnız minalar təmizləndikdən sonra infrastruktur, məktəblər, xəstəxanalar yaradıla bilər. Göstərilən səylərə baxmayaraq, minalar hələ də mülki vətəndaşlara təhlükə yaradır. 2020-ci ildə on mindən çox insan minaların, yaxud da partlamamış hərbi sursatların qurbanına çevrilib. Bütün bunlar kifayət qədər mürəkkəb və ciddi problemdir. Uşaqlar məktəbə, qadınlar işə, bazara getdikdə minaların qurbanına çevrilirlər. Hər dörd mina qurbanından biri məhz uşaqdır. Buna görə də dünyadakı mövcud vəziyyət bütün dövlətlər tərəfindən ciddi nəzərə alınmalıdır. BMT-nin fəaliyyət istiqamətlərindən biri də partlamamış sursatların təhlükəsi haqqında məlumatlandırma prosesinin təşkilindən ibarətdir. Çünki minaların və partlamamış sursatların təmizlənməsi peşəkar bacarıqlar tələb edir.

"Bununla əlaqədar daha bir fəaliyyət istiqaməti tərəfdaşlığın qurulmasıdır. Biz Azərbaycanla bu cür əməkdaşlığı görürük. Azərbaycan hökuməti, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın yaradılması bu məsələlərdə mühüm nailiyyətlər əldə etməyə imkan verir. Əgər hər hansı dövlət minaların və partlamamış sursatlardan azad olmayıbsa, orada dayanıqlı inkişaf məqsədlərinə çatmaq mümkün olmayacaq", - deyə Çaru Bist qeyd edib.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsinin müşaviri bildirib ki, insanların həyatını xilas etməklə yanaşı, mina və digər sursatlardan zərərçəkənlərə də dəstək göstərilməlidir. BMT-nin dəstəyi ilə 1999-cu ildən bəri Azərbaycanda ANAMA 6 mindən çox mina təmizləyib və bunun nəticəsində 160 mindən çox köçkünün geri qayıtmasına şərait yaranıb.

"Biz ANAMA ilə daha yaxından əməkdaşlıq edirik. İki həftə əvvəl yeni bir sazişə imza atmışıq. Bu məqsədlə BMT-nin Fövqəladə hallara qarşı tədbirlər üzrə Mərkəzi Fondundan 1 milyon ABŞ dolları həcmində vəsait ayrılıb. Bu vəsait həm işçi heyətə təlim keçirilməsinə, həm də avadanlıqların alınmasına yönəldiləcək. Biz Azərbaycanda bu istiqamətə dəstəyimizi artırmışıq. ANAMA-ya mina xəbərdarlığına dair ehtiyacların araşdırılmasında və tədqiqat sahəsində də dəstək olacağıq. Fəaliyyətimiz həmçinin mina avadanlığının satın alınmasını, minalardan təmizlənən ərazilərin bərpasını və minaları aşkarlayan itlərin təlimləndirilməsi prosesini də əhatə edəcək", - deyə o qeyd edib.

ANAMA İdarə Heyətinin sədr müavini Samir Poladov agentliyin fəaliyyət göstərdiyi müddətdə ərazilərin minalardan təmizlənməsi sahəsində gördüyü işlərdən danışıb.

Tədbirdə çıxış edən Füzuli sakini Asif Əhmədov bildirib ki, təsərrüfatla məşğul olduqları otlaq sahəsində basdırılmış mina 2020-ci il noyabrın 14-də partlayıb və qardaşı həlak olub, özü isə sol ayağını itirib. O, mülki əhalini minalanmış ərazilərə getməməyə çağırıb, bunun çox təhlükəli olduğunu vurğulayıb.

Beynəlxalq Mətbuat İnstitutunun Azərbaycan Milli Komitəsinin rəhbəri Umud Mirzəyev qeyd edib ki, komitə mina və partlamamış sursatların təhlükəsinin aradan qaldırılması, Ermənistanın qadağan olunmuş raket və silahlardan istifadə etməsi ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyət göstərir: "44 gün ərzində düşmənin yerüstü arsenalı məhv edilsə də, yer altındakı gizli arsenalı hələ qalmaqdadır. Minalar işğaldan azad olunmuş ərazilərdə elektrik xətləri boyunca, yol kənarlarına, kənd və qəsəbədaxili cığırlarına, çay kənarlarına və digər yerlərə basdırılıb. Mina təhlükəsinin qarşısının alınması istiqamətində hökumət, QHT-lər və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsinə ehtiyac var. İnsanları minalanmış ərazilərə getməkdən çəkindirmək üçün yerli və xarici jurnalistlərin işğaldan azad olunmuş ərazilərə səfərlərinin təşkili vacibdir. Həmin ərazilərdə mina risklərinin aradan qaldırılmasına müəyyən zaman lazımdır. Beynəlxalq təşkilatları minalanmış ərazilərin xəritəsini vermək üçün Ermənistana təzyiq göstərməyə çağırırıq".

Sonda jurnalistlərin suallarını cavablandırılıb.

# İraqlı deputat: "Azərbaycanın Vətən müharibəsində Qələbəsi hər birimizi sevindirir və qürurlandırır"



"Biz İraq türkmənləri olaraq Bakıda olmağımızdan çox məmnunuq. Bu səfər İraq və Azərbaycan xalqları arasında qardaşlığın, dostluğun təzahürüdür.

Ölkələrimizi, xalqlarımızı birləşdirən bir çox amillər var. Bu amillərdən biri dahi Azərbaycan şairi, mütəfəkkiri və filosofu Füzulidir. Füzulinin Kərbəlada, Kərkükdə nişanələri var".

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycanda səfərdə olan İraq parlamentinin nümayəndə heyətinin üzvü, parlamentin İnsan haqları komitəsinin sədri Arşed Rəşad Fath Allah al-Salihi bildirib.

Azərbaycanın Vətən müharibəsində Qələbəsi onları sevindirdiyini və qürurlandırdığını deyən iraqlı deputat qeyd edib: "Can Azərbaycanın uğurları, böyük Zəfəri haqqında bütün dünya bilməlidir. 30 ildən artıq müddətdə işğal altında qalan torpaqları azad etmək böyük uğurdur".

İraq və Azərbaycan xalqları arasında qardaşlığı, dostluğu daha da möhkəmləndirməyin əhəmiyyətini qeyd edən deputat İraq və Azərbaycan parlamentləri arasında münasibətlərin inkişafının vacibliyini vurğulayıb.

# Azərbaycan regionun aparıcı siyasi və iqtisadi gücüdür

*Əvvəli 1-ci səh.*

Ermənistan özünü heç olmasa, bundan sonra normal, sivil qonşu kimi apararsa, nəinki itirər, əksinə, qazana bilər. Artıq neçənci dəfədir ki, İlham Əliyev Ermənistana düşdüyü acınacaqlı durumdan, iqtisadi bataqlıqdan qurtuluş yollarını göstərir. Bu da bir daha onu deməyə əsas verir ki, İlham Əliyev nəinki Azərbaycanın, hətta qonşu və tərəfdaş ölkələrin də iqtisadiyyatının inkişafına kömək etmək üçün təşəbbüslər irəli sürür. Bu, ilk növbədə, Azərbaycan Prezidentinin humanizm prinsiplərinə hər zamankı kimi sadiqliyinin nümunəsidir.

## Yeni strateji mərhələ, artan valyuta ehtiyatları

Bütün dövrlərdə tam müstəqil siyasət yürüdərək həyata keçirdiyi uğurlu diplomatiya ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını müəyyənləşdirir.

Son 17 ildə milli maraqlara cavab verən siyasət həyata keçirməklə ölkəmizin beynəlxalq nüfuzunu gündən-günə yüksəldən İlham Əliyevin yeni inkişaf strategiyası Azərbaycana həm də mühüm tərəfdaşlar qazandırmaqdadır. Bu gün həmin tərəfdaşlar işğaldan azad edilmiş torpaqlarımızda reallaşacaq layihələrin iştirakçısı olmaqda maraqlıdırlar.

Azərbaycan Prezidenti həmin tərəfdaşları həm İqtisadi Əməkdaşlıq Təşkilatının, həm də Türk Şurasının zirvə görüşlərində də Qarabağda reallaşacaq layihələrdə iştirak etməyə çağırmışdı.

Ancaq onu da xüsusi olaraq vurğulamalıyıq ki, Qarabağda reallaşacaq istənilən layihəni Azərbaycan öz gücünə gerçəkləşdirə bilər. Nəzərə alsaq ki, qlobal pandemiya ilə mübarizə tədbirləri bütün ölkələr kimi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib, buna baxmayaraq həyata keçiriləcək istənilən layihənin reallaşması üçün dövlətin iqtisadi qüdrəti yetərlidir. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı vəzifələrin icrası üçün 2021-ci ilin dövlət büdcəsində ilkin olaraq 2,2 mlrd. manat maliyyə təminatının ayrılması da bunu təsdiqləyən reallıqdır.

Digər bir müsbət amil isə ölkəmizin strateji valyuta ehtiyatlarının 51,2 milyard dolları ötməsidir. Bu ehtiyatlar xarici borc həcmini 5,8 dəfə üstələyir. Bu həm də o deməkdir ki, Azərbaycan dövləti istənilən vaxt bütün xarici borcu ödəyə bilər.

Bütün bunlar Davos İqtisadi Forumunun son hesabatında da əksini tapıb. Sənəddə qeyd edilir ki, Azərbaycan iqtisadi inkişaf və infrastruktur layihələrinin icrası baxımından inkişaf etmiş ölkələri qabaqlayıb. Özü də bütün bunlar dövlətin öz hesabına reallaşıb, yəni Azərbaycan kimdənsə kömək istəməyib, borc almayıb.

Azad edilmiş torpaqlarımızda reallaşacaq mühüm infrastrukturlar, qlobal layihələr isə onu deməyə əsas verir ki, artıq Azərbaycanın və regionun inkişafında yeni dövr, yeni era başlayır. Bu layihələrin gerçəkləşməsi isə regional inkişaf, əməkdaşlıq, bağlılıq üçün daha əlverişli imkanlar yaradacaq. Tezliklə xarici investorların da azad edilmiş torpaqlarımızda yeni layihələrə sərmayə yatırmaları, əlbəttə ki, iqtisadiyyatımızın daha da yüksəlişini təmin edəcək. Azərbaycan həm Qarabağın şöhrətini özünə qaytaracaq, həm də iqtisadi dividendlər qazanacaq. Bütün bunlar isə Azərbaycanın Cənubi Qafqaz regionunda ən sabit, ən qüdrətli və lider ölkə statusunun, mövqeyinin daha da möhkəmlənməsini şərtləndirəcək.

Sadalananlara əsasən deyə bilərik ki, 2021-ci ildən keyfiyyətcə yeni strateji mərhələyə daxil olan Azərbaycan İlham Əliyevin inkişaf strategiyası və dərin islahatları ilə siyasi və iqtisadi qüdrətini daha da yüksəldəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

**"Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah dastan yazmaqda davam edəcək".**

***Rəcəb Tayyib ƏRDOĞAN***

**"Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar öz dədə-baba torpaqlarına qayıdacaqlar.**
**Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq. Ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik.**
**Biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcək".**

**İlham ƏLİYEV**



# Dünya bizdən öyrənir

*Əvvəli 1-ci səh.*

## Novatorluğu hazırlıqlı qarşılamaq

Vətən müharibəsindəki qələbəmizdən sonra dünyanın bizə diqqəti daha da artmaqdadır. Beynəlxalq aləm Azərbaycanı indi daha həssaslıqla öyrənməyə başlayıb. Dünya ölkəmizin yürütdüyü inkişaf siyasətindən, əldə etdiklərindən nəticə çıxarmağa daha da meyilli görünür. Çünki Azərbaycan dövləti o qədər də uzun olmayan illər ərzində çoxlarının xəyal belə etmədiklərini gerçəyə çevirməyi bacarıb. Dövlətimiz regionda yeni reallıqlar yaradıb. Bu reallıqlar qlobal dünyanın yeni inkişaf trendlərindən, dünyanın gərdişindən doğan reallıqlardır.

Dünya dəyişir, şərtlər başqalaşır. Yeni maraqlar formalaşır. Dünən üçün aktual olanlar bu gün artıq öz əhəmiyyətini itirməyə başlayır. Gələcəklə bağlı yeni strateji baxışlar müəyyənləşir. Bəşəriyyət, qlobal beyin mərkəzləri mövcud problemlərin həlli üçün yeni yollar axtarır. İnsan beyninin məhsulu olan innovasiyalar, informasiya texnologiyaları, yaradıcı güc həyatımızı dəyişir. Qlobal iqtisadiyyat yeni imkanların axtarışına çıxır.

Bizim ən böyük uğurumuz ondadır ki, özümüzü novatorluğa, dəyişikliklərə vaxtında hazırlaya bilmişik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində ölkəmiz dünyanın dəyişən meyillərini hazırlıqlı qarşılayır. Ona görə də bu gün Azərbaycan bir çox ölkələrdən fərqli olaraq qlobal dəyişikliklərin kənar seyrçisi deyil, bu dəyişiklikləri yaradanlardandır. İnkişaf proseslərini irəli aparanlardandır. Onu yeni-yeni mütərəqqi təcrübələrlə zənginləşdirənlərdəndir. Ortaya qoyduğu parlaq nümunələrlə başqaları üçün də model təqdim edənlərdəndir.

## Qalibiyyət anı

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə müəyyən etdiyi strateji inkişaf kursuna uyğun olaraq aparılan siyasətin, cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlərin mahiyyəti indi hər birimiz üçün bir daha aydın olur. 1993-cü ilin iyununda Ulu Öndərin xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdışından sonra atılan addımlara çoxumuz sadəcə hüquqi dövlət quruculuğu tədbirləri kimi baxırdıq. Azad bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, demokratik təsisatların, vətəndaş cəmiyyətinin formalaşdırılması kimi yanaşırdıq. 2003-cü ildən etibarən cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə, inkişaf proseslərinə, apardığı köklü islahatlara, ordu quruculuğu məsələlərinə, gənc nəslin vətənpərvərlik tərbiyəsinə və digər strateji istiqamətlərdə görülən işlərə Ulu Öndərin müəllifi olduğu inkişaf kursunun davamı kimi nəzər yetirirdik. Amma indi bütün bunları küll halında, böyük bir dövlətçilik istiqamətləri kimi görüb anlaya bilirik.

Bunların hamısının birlikdə həyata keçirilməsi Azərbaycanın gələcəyə hazırlanması idi. Qarşıya qoyulan milli hədəflərə doğru ardıcıl şəkildə irəliləməsi idi. Bu gün həmin arzularda yaşayan gələcəyin içindəyik. Bu dövr üçün ən böyük milli hədəfimiz olan Qarabağın azad edilməsi, işğal altındakı torpaqlarımızın düşməndən təmizlənməsi dövrün ən xoşbəxt insanlarıyıq.

Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründən qurulmağa başlayan, Ali Baş Komandan İlham Əliyevin isə dünyanın ən güclü orduları sırasında qərarlaşdırdığı Azərbaycan Ordusu bizi ən ülvi arzumuza qovuşdurdu. Zəfəri ilə tarix yazdı. Düşməni torpaqlarımızdan qovdu. Təxminən 30 il əvvəl müstəqilliyini yenicə qazanmış ölkəmizdəki xaosdan, naşı siyasətçilərin yaratdığı hərc-mərcikdən xilas etdi. Havadarlarının əli ilə cənnət yurdlarımızı zəbt edən azğın düşmənin özü haqqında yaratdığı mif darmadağın oldu. Göründü ki, Azərbaycan Ordusunun qüdrəti qarşısında Ermənistanın quldur birləşmələrinin cəmi bir neçə günlük gücü varmış. Azərbaycan igidləri qısa zaman ərzində işğalçı ölkənin bütün ordusunun axırına çıxdılar. Onları torpaqlarımızdan "iti qovan kimi" qovdular. Bu iflasdan sonra Ermənistanın yenidən özünə ordu yarada bilməsi üçün onilliklər lazımdır. Üzləşdiyi demoqrafik böhran ucbatından doğum sayı getdikcə azalan, sosial problemlər üzündən əhalisinin çörək dalınca başqa məmləkətlərə üz tutan, ağır məğlubiyyətdən sonra rəzil duruma düşən və başı siyasi çəkişmələrə qarışan işğalçı ölkə çətin ki, bundan sonra özünə babat bir ordu yarada bilsin.

Azərbaycan 44 günlük Vətən müharibəsində düşmənə elə bir dərs verdi ki, mənfur ermənilər bundan sonra bir də cəsarət edib müharibə haqqında düşünə bilməzlər. Bu barədə hər dəfə xam xəyallara qapılanda dəmir yumruğun ağır zərbəsini zəhərli faşist ideologiyası ilə dolmuş xəstə başlarında hiss edəcəkər.

## Tarixi haqlarımıza nail olmuşuq

İndi bütün dünyanın gözü bizdədir. Çünki Azərbaycan öz tarixi haqlarına, müqəddəs vəzifələrinə nail ola bilib. Haqq-ədaləti bərpa edib. İllərlə işğal altında saxlanan doğma torpaqlarını düşməndən təmizləyib.

Dünyanın müxtəlif ölkələrində xeyli sayda münaqişə ocaqları var. Bu ocaqların olması kimlərəsə sərf edir. Hansısa xarici qüvvələr müəyyən maraqlarını təmin etməkdən ötrü bu münaqişə ocaqlarını yaradır və idarə edirlər. Bütün bunlar bəşəriyyətin əsrlərcə görə-görə gəldiyi acı reallıqdır. Hətta politologiya elmində "konflikt menecmenti" deyilən bir anlayış da formalaşıb. Hansısa toplumun, etnik qrupun öz daxilindəki neştərlə saxta millətçilik, uydurulmuş tarixi əfsanələrlə məqsədli şəkildə damarlarına zəhər yeridilir. Onlar böyük bir regionda pozucu ünsürlərə çevrilirlər. Yaramaz davranışları ilə inkişafa, daimi təhlükəsizliyə maneə yaradırlar. Dünyanın böyük güc mərkəzləri üçün kifayət qədər əhəmiyyətli bölgə olan Cənubi Qafqaz da bu bəladan xali deyil. İmperiyalar dağılanda, əfsus ki, onların ağır miraslarından biri məhz bu cür münaqişə ocaqları olur. Keçmiş SSRİ imperiyasının belə "qalıqlarına" Azərbaycanla yanaşı, qonşu Gürcüstanda, Moldovada, Ukraynada, müəyyən səviyyələrdə digər postsovet ölkələrində də rast gəlmək olar. Dünyanın başqa coğrafiyalarındakı ayrı-ayrı ölkələr də uzun illərdir ki, belə münaqişələrdən əziyyət çəkir. On illər boyu danışıqlar davam edir. Guya həll yolları axtarılır. Amma bütün bunların sadəcə baş qatmaqdan başqa bir şey olmadığını zaman sübuta yetirir. İtirilən illərin əziyyətini sadə insanlar çəkir. Hər qanlı toqquşmada minlərlə insan həlak olur. Milyonlarla şəxs yurd-yuvasını itirir, illərlə zərrə-zərrə tikib qurduqları ev-eşikləri dağıdılır. Ömürləri tar-mar olur. Gələcəklə bağlı arzuları puça çıxır. Didərginliyin necə dəhşətli talе olduğunu 30 ilə yaxındır bu taleyi yaşayan milyonlarla soydaşımızın həyatında görürük. Bu cür regional münaqişələrin torpağın bağrında qara yara kimi zaman-zaman necə göz verdiyini bizdən çox kim bilər ki?!

## Ustad dərsləri

Azərbaycan öz əzəli-əbədi torpaqlarında riyakar münaqişəyə cəlb edilmiş, ərazisi işğala məruz qalmış ölkələr sırasında, demək olar son 500 ildə, ilk ölkə oldu ki, tarixi torpaqlarını işğaldan azad edə bildi. Təxminən 30 il çəkən, sülh danışıqları ilə bu qədər müddətdə həll olunmayan münaqişəyə 44 günlük Vətən müharibəsi ilə yekun vurdu. Bütün dünyaya göstərdi ki, dövrümüzdə haqqı sübuta yetirməkdən ötrü təkcə beynəlxalq hüquq normaları kifayət etmir. Haqqın-ədalətin sənin tərəfində olması ilə də iş bitmir. Qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan. Yeri gəlmişkən, vuran əlinin zorunu da göstərməlisən. Düşmən dəmir yumruğun gücünü duymalıdır. Anlamalıdır ki, rəqibi ondan daha güclüdür. Havadarlarının köməyi, güvəndiyi lobbi alverçilərinin dəstəyi onu bu zərbədən xilas edəcək. Necə ki, Azərbaycan bütün dünyaya dəmir yumruğunun gücünü göstərdi. Bu gücü toplamaq üçün illərdən bəri yaratdığı inkişaf hekayəsini 44 günlük Vətən müharibəsində nəql etdi. Həqiqətləri çözmək üçün ölkənin, xalqın, cəmiyyətin inkişafına nail oldu. Ordunu modernləşdirməyi, gücləndirməyi bacardı. Döyüş meydanında düşmənin dizini yerə gətirməyin sirlərini öyrəndi, diplomatik meydanda üstünlükləri ələ aldı. Haqq işinə dəstək verənlərin sayını ildən-ilə artıra bildi. Dünyaya öz həqiqətlərini çatdıra bildi. Düşmənin yalanlarını ifşa etdi. Qüdrətli ordunun öldürücü zərbəsi ilə düşməni zəbun etmək üçün əlverişli məqamı müəyyən etdi. Vaxtında hücuma keçməyə müvəffəq oldu.

Azərbaycan bütün dünyaya, hətta təcrübəli hərbi rəhbərlərə belə Qələbənin sirlərini, bu sirlərin nümunəsini göstərdi. Hərbi təcrübəsi ilə dünyanı mat qoydu. Dövlət rəhbərimizin "Biz nəyi, nə zaman, necə etməyi yaxşı bilirik" kəlmələri hər zaman olduğu kimi, bu dəfə də sözdə deyil, real əməldə öz təcəssümünü tapdı.

Məhz buna görə də bu gün bütün dünya bizdən öyrənir. Dünyanın gözü Azərbaycandadır. Dünyanın gözü Azərbaycandır. Hamı Azərbaycandan öyrənməyə çalışır. Şanlı qələbəmizdən müəyyən nəticələr çıxarmağa can atır. Azərbaycanın həm 44 günlük Vətən müharibəsində, illərlə davam etmiş hərbi, diplomatik, sosial-iqtisadi, mənəvi hazırlıq prosesində, həm apardığı ildırım sürətli döyüş əməliyyatlarında, həm də müharibə nəticəsində yaranmış yeni reallıqların idarə edilməsi qabiliyyətində hər kəsin öyrənə biləcəyi çox sirli məqamlar oldu.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hər kəsə sözün əsl mənasında ustad dərsləri keçdi. Dünya siyasətindən, idarəetmədən başı çıxan hər kəs bu dərslərin nə qədər dəyərli, mahiyyətli, faydalı olduğunu aydın dərk edir və bu dərslərdən lazımınca barınmağa çalışır.

## Sülh arzusu

Azərbaycan 44 günlük Vətən müharibəsi ilə dünyanın hərb tarixini dəyişdi. Ona görə belə bir fikir tez-tez işlənir ki, Azərbaycan XXI əsrin innovativ müharibəsini apardı. Həqiqətən, Azərbaycanın öz iqtisadi imkanları hesabına dost ölkələrdən aldığı, eyni zamanda, müdafiə sənayesini quraraq özünün istehsal etdiyi innovativ silahlarla apardığı bu müharibə Azərbaycanın kosmosdan idarə etdiyi yeni əsrin müharibəsi idi.

Azərbaycan göstərdi ki, hərb meydanında avtomatlar, tanklar, toplar və digər belə silahlar dövrü artıq geridə qalır. Bunların yerini yeni texnologiyalar tutur. Bu silahların əsas hədəfi düşmənin hərbi birləşmələri, texnika və qurğuları, əlisilahlı canlı qüvvəsidir.

Azərbaycan bu müharibədə mülki insanlara qarşı yüksək humanizm nümayiş etdirdi. Ermənistanın heç bir mülki obyektini, dinc sakinini hədəfə almadı. Eyni zamanda dünyaya göstərdi ki, artıq sülh barədə daha ciddi düşünmək zamanıdır. Müharibələrə səbəb olan mənasız iddiaları aradan qaldırmaq gərəkdir. Toplumları faşizim mahyyətli ideologiyalardan çəkindirmək mütləqdir. Ona görə ki, indiki müasir silahlarla uzunmüddətli müharibələr aparılsa, bu müharibələrin miqyası və nəticələri dəhşətli olar. Azərbaycanın Vətən müharibəsində tətbiq etdiyi innovativ silahların gücü düşmənin gözünü qorxudaraq onu təslimçi sülhə, faktiki olaraq kapitulyasiya aktına imza atmağa məcbur etdi, dünyaya böyük bir həqiqəti anlatdı. Qoy dünya bu müharibənin təcrübəsindən nəticə çıxarsın. Bundan sonra o silahlara ehtiyac qalmasın. İnsan oğlunun yaradıcı potensialı, kəşfləri - yeni silahların icadına deyil, həyatın gözəlləşdirilməsinə, inkişafa yönələn mövcud problemlərin həllinə, rifahın yüksəldilməsinə həsr olunsun.

Azərbaycanın Vətən müharibəsində tətbiq etdiyi silahlar, nümayiş etdirdiyi mükəmməl döyüş taktikası, bu gün dünyanın aparıcı hərbi məktəblərində öyrənilir, təhlil edilir. Bütün bunlar, həqiqətən, hərb tarixinə yazılan, bu tarixdə əbədiləşən nümunəvi yeniliklərdir. Azərbaycan igidlərinin canı-qanı bahasına yazılmış qəhrəmanlıq salnaməsidir. Bəşəriyyət istərdi ki, bundan sonra bütün bunlar ancaq tarix kimi xatırlansın, öyrənilsin. Bu silahların, döyüş taktikalarının təkrarlanmasına Yer üzünün heç bir yerində daha ehtiyac olmasın. Bir daha dünyamızda müharibələr baş verməsin. Anaların ürəyinə çalın-çarpaz dağlar çəkilməsin. Göz yaşları axmasın.

## Quruculuq vaxtı

Azərbaycan onillər boyu sülh danışıqları aparanda da, 44 günlük müharibə ilə yüz illərin problemlərini həll edəndə də nə istədiyini yaxşı bilirdi. Bu müharibə bizə torpaqlarımızı düşməndən təmizləmək, onillərlə düşmənə sərf edən şəkildə dondurulmuş münaqişənin buzunu əritmək, status kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, haqq-ədaləti bərpa etmək, məcburi köçkünlərimizin əzəli torpaqlarına qayıdışına nail olmaq üçün lazım idi.

Ermənistan isə o torpaqları nə üçün işğal etdiyini, niyə onillərlə işğal altında saxladığını, ötən 30 il ərzində bu işğaldan nə qazandığını heç kimə doğru-dürüst izah edə bilməyib. Çünki ortada Ermənistan cəmiyyətinin bu münaqişədən nə qazandığı özünə də məlum deyil. Əksinə, ağlasığmaz itkiləri var. Ötən əsrin 80-ci illərinin sonunda Qarabağ ermənilərinin separatçı hərəkətləri yenicə başlayanda Aqanbekyan kimi başabəla akademiklər bunu belə əsaslandırmağa çalışırdılar ki, guya Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi regionun iqtisadi inkişafı baxımından daha effektiv olar. Ermənilərin 30 il ərzində bu torpaqlarımızda yaratdıqları xarabalıqlar, qurulu rayonlarımızı, kənd və qəsəbələrimizi tar-mar etmələri, evlərin daşına, mismarına qədər söküb satmaları söhbətin hansı "effektivlikdən" getdiyini aydın göstərir.

Azad edilmiş yurdlarımızdan tez-tez videogörüntülər çəkilib təqdim edilir. Bu xarabalıqlara baxdıqca istər-istəməz Nizami Gəncəvinin Nuşirəvan şah və bayquşların söhbəti dastanını xatırladım. İnsan işğalçıların, bu yerlərdə məskunlaşdırılmış ermənilərin illər ərzində bu acınacaqlı şəraitdə, xarabazarlıqda, necə yaşadıqlarına təəccüblənməyə bilmir. Bu, insandan daha çox, həşərat həyatıdır. Belə dağıntılar törətmək də şüurlu insana yox, məhz ziyanverici həşəratlara xas əməllərdir.

30 il ərzində ermənilər bu ərazilərdə heç bir iqtisadi dəyər yarada bilməyiblər. Yaratdıqları viranələrdir. Azərbaycanın vəhşicəsinə dağıdılan əmlakıdır. Vətəndaşlarımızın talan edilmiş mülkiyyətidir. Sivilizasiyadan uzaq vəhşi sürüsü kimi bu ərazilərdə qurulu nə varsa yerləyeksan edən ermənilər buna görə beynəlxalq məhkəmələr qarşısında cavab verəcəklər. Bədnam əməllərinin əvəzini ödəməli olacaqlar. O zaman bir daha anlayacaqlar ki, faşizmə məxsus millətçilik nağılları heç kimə xeyir gətirməyib. Bir daha anlayacaqlar ki, nə istədiyini anlamayan, kimlərinsə əlində alətə çevrilən, regionun inkişafını əngəlləyən, özünü çıxılmaz vəziyyətə məhkum edən bir xalqın gələcəyi ola bilməz!

## Dünyaya taybatay açılan qapılar

Azərbaycan isə münaqişə başa çatandan sonra yenə də nə istədiyini yaxşı bilir. Dövlətimiz düşməndən təmizlənmiş yurd yerlərimizi yenidən gülüstana çevirmək əzmindədir. Bu yerlərin yenidən qurulmasına Azərbaycanın və ümumən dünyanın inkişaf axarına qovuşmasına çalışır. Münaqişə başa çatan kimi dərhal bu istiqamətdə işlər başlanıb. İşğaldan azad edilmiş rayonlarımızda yollar çəkilir. Bu torpaqların dünyaya, sivilizasiyaya açıq olması üçün hava limanları tikilir. Azərbaycan azad ərazilərini yenidən qurur, abadlaşdırır. Regiondan dünyaya yeni qapılar açır. Dünya iqtisadiyyatı üçün yeni imkanlar yaradır. Hər kəsi, bütün qonşu ölkələri bu imkanlardan birgə faydalanmağa çağırır. Hamını sülhü qorumaqdan ötrü çalışmağa, yeni inkişaf imkanları kəşf etməyə, tərəqqiyə mane olan əngəlləri ortadan götürməyə dəvət edir. Ona görə bu gün bütün dünyanın gözü Azərbaycandadır.

Tarixin gərdişindən baş çıxaran hər kəs fərqindədir ki, indiyədək heç bir dövlət müharibələrdən, münaqişələrdən səmərə görməyib. Bu günə qədər nail olduğu inkişaf səviyyəsini isə bütün bəşəriyyət sülhə xidmət edən, iqtisadi yüksəlişdən hamının faydalanması üçün geniş imkanlar yaradan, investisiyalara, mütərəqqi təşəbbüslərə, dirçəlişə yol açan müdrik, dühalı liderlərə bocludur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün beynəlxalq siyasi arenada belə bir tarixi missiyanı hünərlə, qətiyyətlə yerinə yetirir.

Dünya onun simasında öz məqsədlərini dəqiq müəyyənləşdirən, keçmişin təcrübəsinə əsasən bu günü və gələcəyi doğru proqnozlaşdıran, irəli sürdüyü qlobal təşəbbüslərin effektivliyini, faydalarını zaman-zaman sübuta yetirən kamil bir lideri, müdrik dövlət rəhbərini görür.

Cənab İlham Əliyevin irəli sürdüyü hər təklifin, verdiyi hər bəyanatın arxasında real icra mexanizmləri, aydın, dəqiq gözləntilər durur. Əgər Azərbaycanın yaratdığı reallıqlar düzgün dəyərləndirilərsə, bütün qonşu ölkələr bu reallıqlardan bəhrələnmək üçün imkanları birləşdirərlərsə, sülhün, sabitliyin davamlı inkişafı üçün çalışarlarsa, o zaman bu region yaxın illərdə dünyanın cənnətinə çevriləcək. Azərbaycan regiondakı böyük maraqları da nəzərə almaqla, burada gələcəklə bağlı elə dəqiq, düşünülmüş konfiqurasiya quracaq ki, özünü bu inkişaf mühitindən kənarda saxlayanlar yalnız itirəcəklər.

İnkişaf qatarı bütün hallarda öz yoluna davam edəcək və böyük gələcəyə doğru irəliləyəcək. Dünya bu xoşbəxt yola şahid olacaq!

## Azərbaycandan başlanan gələcək

Azərbaycan bütün addımları ilə, həyata keçirdiyi tədbirlərlə, qazandığı uğurlarla bu gələcəyin mənzərəsini yaradır. Milliyyətindən, dinindən, mədəniyyət fərqlərindən asılı olmayaraq, bu, hər kəsin hüzur içində, qarşılıqlı hörmət ruhunda yaşayacağı parlaq gələcəkdir. Azərbaycan öz nümunəsi ilə hər bir bəşər övladını belə bir mühiti yaratmağın, belə bir gələcəyi qurmağın mümkünlüyünə ürəkdən inandırır və nurlu məqsədləri və əməlləri ilə buna addım-addım nail olur.

Bu gün bütün dünyanın nəzərləri həm də Azərbaycandakı multikulturalizm, tolerantlıq, mədəniyyətlərarası dialoq mühitindədir. Ölkəmiz illərdir ki, Qərb və Şərq sivilizasiyalarının təmas məkanına çevrilib. Tarixən bu torpaqlarda mövcud olan tolerantlıq ənənələri daha da inkişaf etdirilir. Bu ənənələr üzərində tolerantlığın Azərbaycan nümunəsi dünyaya təqdim edilir. Bakıda, digər iri şəhərlərimizdə bu yöndə beynəlxalq tədbirlər keçirilir. Azərbaycandan dünyaya multikultural dəyərlərin yayılması, innovativ inkişaf, insan kapitalının dəstəklənməsi, cəmiyyətdə savadlılıq səviyyəsinin yüksəldilməsi, ətraf mühitin mühafizəsi, sosial problemlərin həlli və s. qlobal məsələlərlə bağlı müasir çağırışlar ünvanlanır.

Tarixin bütün dövrlərində bəşəriyyətin xoşbəxtliyi üçün yollar axtaran, müxtəlif nəzəriyyələr formalaşdıran mütərəqqi fikirli bütün insanların arzusunda olduğu gələcək Azərbaycandan başlanır. Bu başlanğıcda odlar yurdunun adı var. Azərbaycandan başlanan bu firavan gələcəkdə özünü görmək istəyənlərin, bu gələcəyin qurulması prosesində iştirak etmək arzusunda olanların, buna can atanların sayı çoxdur. Bu gələcək həm də böyük inam, sarsılmaz güvən deməkdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev həyata keçirdiyi siyasətlə, imzası qədər mötəbər olan hər sözünə sadiqliyi ilə ölkəmizə bütün dünyada böyük inam, etimad qazandıra bilib.

Azərbaycan geniş imkanlar ölkəsi deməkdir. Burada mövcud olan zəngin, əlverişli biznes mühiti investorları özünə cəlb edir. Onlar iqtisadi həyatın müxtəlif sahələrinə yatırdıqları sərmayələrin gələcəyindən əmindirlər. Bu sərmayələrlə yaradılan yeni iqtisadi dəyərlər ölkəmizin sabahına inanıb etibar edən iş adamlarına, şirkətlərə, o cümlədən, transmilli korporasiyalara böyük üstünlüklər qazandırır.

Azərbaycanın Prezidenti cəmiyyət həyatının müxtəlif sahələrində köklü islahatları uğurla davam etdirir. Yeni dövrə transformasiya prosesi sürətlə həyata keçirilir. Ölkəmiz yenilənir. Bu yenilik ruhu hər yerdə, hər an özünü hiss etdirir və insanlarımızın arzuları ilə üst-üstə düşür. Bu yeniliklərlə Azərbaycan özünü növbəti inkişaf mərhələlərinə hazırlayır. Zamanla birgə özü də dəyişib inkişaf edir.

## Əsrlərin mirası

Dövlətimiz təhsilə, elmə, innovativ təşəbbüslərə ardıcıl dəstəyi ilə cəmiyyətə düzgün yol göstərir. Bütün ölkəboyu məktəblər tikilir, yenidən qurulur. Müasir dövrün tələblərinə cavab verən savadlı pedaqoqlar nəsli yetişdirilir. Onların ölkəmizin ən ucqar bölgələrində də rahat iş mühitinə malik olması, öz missiyasını vicdanla, sevə-sevə yerinə yetirə bilməsi üçün lazımi şərait yaradılır. Universitetlərimiz modernləşdirilir. Təhsilin forması kimi məzmunu da dəyişib, yenilənir. Azərbaycan təhsili tədricən dünya təhsilinə inteqrasiya olunur. Azərbaycan şagirdlərinin, tələbələrinin, alimlərinin səsi-sorağı beynəlxalq tədbirlərdən gəlir. Onların qazandıqları nailiyyətlərin miqyası getdikcə genişlənir. Bu sahədə mütərəqqi ənənələr inkişaf etdirilir. Ziyalılıq, təhsil, Azərbaycan cəmiyyətində yenə də ali bir dəyər kimi öz yüksək mövqeyində qərarlaşır.

Bu mənəvi nailiyyətin əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rolu böyükdür. Onun təşəbbüsü ilə reallaşdırılan humanitar layihələr dövlətimizin səhiyyə , təhsil, elm, mədəniyyət və s. sahələrdə həyata keçirdiyi siyasətə böyük töhfədir. Mehriban xanımın rəhbərliyi ilə həm respublikamızda, həm də ölkə hüdudlarından kənarda reallaşdırılan bu humanitar layihələr dünyanın hər yerində Azərbaycana böyük rəğbət yaradır. Ölkəmizə dərin marağı artırır, dünyanın üzünü Azərbaycana yönəldir.

Dövlətimizin işğaldan azad edilmiş yurd yerlərimizdə bərpasına başladığı yenidənqurma işlərindən birincisi məhz mədəniyyət abidələrimizdir. Xalqımız vandal ermənilərin onilliklərlə dağıdıb viran qoyduqları, yer üzündən silməyə çalışdıqları mədəni sərvətlərimizə sahib çıxır. Onları əvvəlki görkəminə qaytarmaq, bərpa etmək, bu abidələrə yeni bir həyat vermək üçün lazımi addımlar atılır. Əsrlərdən soraq gətirən bu abidələri yaratmış Azərbaycan xalqı bundan sonra da onların əhatəsində, işığında əbədi yaşayacaq. Gələcək həyat nailiyyətləri ilə torpağın köksündə yeni-yeni maddi mədəniyyət nümunələri ucaldacaq.

## Cənab İlham Əliyevin yetişdirdiyi gənclik

Azərbaycanın ən böyük nailiyyətlərindən biri də xoşbəxt gələcəyi yaratmağa qabil gənclər ordusunun yetişməsidir. İşğal altındakı torpaqlarımız da məhz bu gəncliyin gücü, əzmkarlığı, vətənpərvərliyi, döyüş ruhu sayəsində azadlığa çıxdı. Vətən müharibəsindəki zəfərimizdə bütün nəsillərin böyük əməyi, zəhməti var. Amma bu zəfəri, bu qalibiyyəti qazananlar cərgəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən, formalaşan gəncliyin xüsusi rolu oldu. Belə bir gəncliyi məhz İlham Əliyevin müdrik siyasəti yetişdirdi.

Bu gənclik cənab İlham Əliyevin yetişdirdiyi gənclikdir: qəlbi Vətən sevgisi ilə dolu, qürurlu, yüksək ruhlu, milli-mənəvi dəyərlərə yiyələnmiş, dövlətinə, torpağına, xalqına bağlı. Başqa cür ola da bilməzdi. Onlar gözlərini açıb Azərbaycanı güclü, qüdrətli, mübariz, öz milli məqsədlərinə doğru addım-addım irəliləyən görüblər. Ölkəmizin nailiyyətlərini gündəlik həyat tərzi kimi yaşayıblar. Dövlətimizin varlığını, gücünü, dəstəyini, diqqət və qayğısını hər zaman hiss ediblər. Vətən, dövlət bu gənclik üçün sadəcə söz deyil, qeyri-müəyyən təsəvvür deyil. Bu, sarsılmaz inamdır, arzulara çatmaq üçün mənəvi və maddi güc mənbəyidir, sarsılmaz bir dayaqdır. Daim vətəndaşlarının yanında olan, onların rifahı, xoşbəxtliyi üçün çalışan təsisatdır. Qürur mənbəyidir, Vətən evinin abadlığıdır, inkişafdır, dünyaya qovuşmaqdır, qlobal inkişaf proseslərinin güclü bir hissəsi olmaqdır. Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini aydın görə bilir. Ona görə də Azərbaycanın inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdır.

Azərbaycan bu gün cəmiyyətdə nail olduğu milli birliklə nümunədir, dünyanın diqqət mərkəzindədir. Dünya bu milli birliyin gücünü Vətən müharibəsi dövründə də gördü, bu gün də görür. Ölkəmizdə aparılan iqtidar-müxalifət dialoqu yeni bir siyasi konfiqurasiya formalaşdırır. Mövcud problemlərin həllinə, faydalı təşəbbüslərin nəzərə alınmasına, eyni zamanda, Azərbaycanın milli maraqları ətrafında vəhdətin daha da möhkəmlənməsinə xidmət edir. Bu, yeni bir siyasi mədəniyyətdir. Azərbaycan bununla da yeni bir örnək formalaşdırır.

Bəli, bu gün dünya bizə baxır. Dünyanın nəzərləri bizdədir. Ona görə də yeni, müasir töhfələrlə Azərbaycanın uğurlarını daha da zənginləşdirməyə çalışaq. Məsuliyyətli vətəndaş kimi Vətən qarşısındakı mənəvi öhdəliklərimizi yerinə yetirək. Azərbaycan dövləti daha da güclənsin, qüdrətlənsin. Öz layiqli gələcəyinə doğru daha mətin addımlarla irəliləsin, xalqımız, gəncliyimiz xoşbəxt yaşasın!

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor***

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH




## Zəngəzur dəhlizi həm də türk dünyasının birliyinə xidmət edəcək

### Dəhliz digər ölkələr üçün də əlavə əməkdaşlıq imkanları yaradacaq

*Əvvəli 1-ci səh.*

Bu həm də onu göstərir ki, türkdilli dövlətlər artıq əvvəlki kimi mədəni və siyasi əlaqələrlə kifayətlənmir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının beynəlxalq təşkilata çevrilməsi barədə bəyanatı gələcəkdə bu ölkələr arasında mədəni-siyasi əlaqələrin möhkəmlənməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın genişlənəcəyindən də xəbər verir.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev Qarabağ münaqişəsinin həll olunduğunu, o cümlədən ölkələrimiz arasında mühüm bağlantı kimi Mehri dəhlizinin açılmasına imkan yarandığını vurğulayaraq demişdir: “Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həlli tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işlərinə başlayıb”.

Dövlət başçısı bir daha nəzərə çatdırmışdır ki, müharibənin başa çatması ilə bölgədə yeni imkanlar yaranıb. Bunlardan biri türkdilli ölkələr arasında yaranan nəqliyyat əlaqələridir. Prezident bu nəqliyyat dəhlizinin əhəmiyyətini belə qeyd etmişdir: “Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr üçün əlavə imkanlar yaradacaq”.

Yeri gəlmişkən, qeyd edək ki, həmin dəhlizin açılması eyni zamanda Asiya ilə Avropanın əlaqələrində də mühüm rol oynayacaq. Mehri dəhlizi həmçinin Çinin “Bir kəmər, bir yol” kimi beynəlxalq əhəmiyyətli nəqliyyat layihəsinə öz sanballı töhfəsini verəcək. Çünki bu gün dünyada iqtisadi və ticarət əlaqələrinin genişlənməsi mühüm əhəmiyyət daşıyır. Xüsusilə istehsalçı ölkələr mallarını dünya bazarında daha tez satmaqda maraqlıdır. Çinin “Bir yol, bir kəmər” layihəsi də bu məqsədə xidmət edir.

Süveyş kanalında baş verən gəmi qəzası isə bir daha göstərdi ki, dünyanın təhlükəsiz alternativ marşrutlara ehtiyacı var. Məlumat üçün bildirək ki, hazırda dünya dəniz ticarətinin 7 faizi bu kanal üzərindən həyata keçirilir. Səbəb çox sadədir. Asiyadan Avropaya və əksinə hərəkət edən gəmilər Afrikanı dolanıb keçdikdə 8 gündən çox vaxt itirir. Süveyş kanalından istifadə isə vaxta qənaət etməklə yanaşı, həm də artıq vəsaitin xərclənməsinin qarşısını alır.

Göründüyü kimi, Süveyş kanalından istifadə dünya ölkələri üçün mühüm əhəmiyyət daşıyır. Marşrutun qəza üzündən bağlanması nəticəsində dünya birjalarında neftin bahalaşması da bunu sübut edir. Xatırladaq ki, bu hadisədən sonra neft məhsullarının qiyməti birdənbirə 5 faiz bahalaşmışdı. Təsadüfi deyil ki, kanalın bağlı qalması hər gün dünya iqtisadiyyatına 10 milyard dollar ziyan vururdu.

Məlumdur ki, şimal qonşumuz Çindən Avropaya gedən yüklərin öz ərazisindən daşınması üçün ciddi mübarizə aparır. Bundan ötrü Transsibir dəmir yolu və Şimal Buzlu okean marşrutundan istifadə olunmasını təklif edir. Transsibir dəmir yolunun bir hissəsində elektrik qatarlarından istifadədə sürət aşağıdır. Şimal Buzlu okeanından isə ilboyu daşımalar həyata keçirmək mümkün deyil. Bu səbəbdən Rusiya marşrutun daha uzun müddətdə işlək olması üçün güclü atom buzqıran gəmilərdən ibarət donanma yaradır. Nəticədə şimal marşrutundan istifadə müddətinin il ərzində 9-10 aya çatacağı bildirilir. Amma bu, gələcəyin işidir, söhbətsə bu gündən gedir.

Bu gün isə Avrasiya nəqliyyat dəhlizi daha cəlbedicidir. Üstəlik, Mehri dəhlizinin açılması bu marşruta olan marağı daha da artıracaq. Artıq dünyanın nəhəng yükdaşıma şirkətləri yeni marşrutların axtarışına çıxıb. Həmin şirkətlər yüklərin ünvana təhlükəsiz və tez çatdırılması üçün yeni marşrutlara üstünlük vermək istəyirlər.

Mehri dəhlizi üzərindən Naxçıvana dəmir yolu əlaqəsinin bərpası “Şərq-Qərb”, “Şimal-Cənub” dəhlizləri ilə bağlı da yeni situasiya yaradacaq. Prezident İlham Əliyevin bu siyasi gedişi gələcəyə hesablanmış nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyət daşıyır. Çünki marşrutun fəaliyyətə başlaması Azərbaycanın mövcud nəqliyyat ötürücü imkanlarını daha da artıracaq, ölkəmizə geniş iqtisadi imkanlarla yanaşı, həm də böyük siyasi dividendlər gətirəcək. Çünki Azərbaycan-Naxçıvan marşrutu mövcud Bakı-Tbilisi-Qars dəmir yolu marşrutundan 344 kilometr qısadır. Dövlətlərarası ticarətdə isə məsafə qısaldıqca daşınma xərclərinin ucuzlaşması səbəbindən bu faktora xüsusi önəm verilir.

Digər mühüm əhəmiyyət daşıyan faktor odur ki, alternativi çox olan marşrut daha etibarlı sayılır. Məsələn, hər hansı bir siyasi və təbii səbəb, yaxud texnogen qəzalar üzündən Bakı-Tbilisi-Qars marşrutu fəaliyyətini dayandırsa, yüklərin Çindən Avropaya daşınması üçün Azərbaycan-Naxçıvan-Türkiyə marşrutundan istifadə etmək mümkün olacaq.Vurğulayaq ki, Süveyş kanalında baş verən hadisə bir daha nəqliyyat marşrutlarının şaxələnməsinin əhəmiyyətini ortaya çıxardı.

Beləliklə, demək olar ki, yaxın müddətdə Asiyadan Avropaya daşınan yüklərin Azərbaycandan keçməsinin həcmi dəfələrlə artacaq. Bu, ölkəmizə iqtisadi dividendlər gətirməklə yanaşı, onun siyasi nüfuzunu da artıracaq. Eyni zamanda Azərbaycan türk dövlətləri arasında nəqliyyat əlaqələrinin yaranmasında açar ölkə rolunu oynayacaq.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Ukrayna Baş nazirinin müavininin Azərbaycana səfəri nəzərdə tutulur

Ukraynanın Baş nazirinin müavini Aleksey Reznikovun Azərbaycana üçgünlük səfəri gözlənilir.

Aprelin 11-14-ə planlaşdırılan səfər çərçivəsində A.Reznikovun Azərbaycan hökumətinin rəsmiləri ilə görüşü keçiriləcək. Səfərin məqsədi Azərbaycan və Ukrayna arasında iqtisadi əməkdaşlığın inkişafı üçün prioritetləri müzakirə etməkdir.

Eyni zamanda müzakirələr zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində Ukrayna şirkətlərinin iştirakı nəzərdən keçiriləcək.

## “TURKUAZ” layihəsi çərçivəsində ilk konteyner qatarı yola düşüb

“TURKUAZ” layihəsi çərçivəsində ilk ekspres konteyner blok qatarı Türkiyədən yola düşüb.



Qatar hər biri 45 futluq olmaqla, 21 konteynerdən ibarətdir. Paysan stansiyasından yola çıxan qatarın yükü bitki mənşəli heyvan yemidir.

“TURKUAZ” “ADY Konteyner”in Türkiyə və Gürcüstandan olan tərəfdaşları ilə birgə hazırladığı yeni logistik məhsuldur.

Ekspres konteyner qatarı həftədə iki dəfə olmaqla, İstanbul və Mersin şəhərlərindən Bakıya və əks istiqamətdə yükdaşımalar həyata keçirəcək.

Layihə Bakı-Tbilisi-Qars dəmir yolu ilə yükdaşımaların həcminin artmasına da xidmət edəcək.

## İcbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsinə dair bukletlər hazırlanıb

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli fərmanı ilə icbari tibbi sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət vergi orqanlarına həvalə edilib.




Vergiödəyicilərinin məlumatandırılması məqsədilə icbari tibbi sığorta haqlarının yığımını həyata keçirən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən maarifləndirici bukletlər hazırlanıb.

Dövlət Vergi Xidmətindən bildirilib ki, “İcbari tibbi sığorta haqqı”, “Sərnişin və yük daşıma fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi, məcburi dövlət sosial sığorta haqları və icbari tibbi sığorta haqları”, “Aylıq sabit məbləğdə sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta haqları və icbari tibbi sığorta haqları hesablanması və ödənilməsi” və “Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqqı” kimi mövzuları əhatə edən bukletlərdə icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi əyani izah edilir.

## Şəkidə yeni fındıq bağları salınır

Azərbaycanda ixrac potensialı yüksək olan meyvə bağlarının sahəsinin genişləndirilməsi məqsədilə yeni intensiv bağların salınmasına dövlət dəstəyi genişləndirilir.



Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2021-ci ildə Azərbaycanda 6 növ meyvə bitkisi üzrə salınmış yeni intensiv bağlara görə birdəfəlik əkin subsidiyası veriləcək.

Qərara əsasən, 2021-ci il ərzində salınan fındıq bağlarına da birdəfəlik əkin subsidiyası verilməsi nəzərdə tutulur. Subsidiya veriləcək fındıq bağları 200-1500 metr hündürlükdə olan dağlıq və ya dağətəyi yerlərdə salınmalı, hər hektarda ən azı 330 ting əkilməli, bağ damla suvarma sistemi ilə təchiz olunmalıdır.

Aqrar Subsidiya Şurasının qəbul etdiyi qərar ölkədə fındıqçılığın inkişafına öz töhfəsini verməkdədir. Artıq Şəki və Qax rayonlarında yeni fındıq bağlarının salınmasına başlanıb. Kənd təsərrüfatı naziri İnam Kərimov Şəkinin Bideyiz kəndində yeni intensiv fındıq bağının salınması işləri ilə tanış olub. Fındıq bağının salındığı 320 hektar ərazi daşlardan təmizlənib, müvafiq aqrotexniki hazırlıq işləri görülüb, bağ tam şəkildə damla suvarma sistemi ilə təchiz olunub.

Daha sonra nazir Şəkinin Biləcik kəndində keçmiş çay yatağında yeni salınmış fındıq bağında görülən işlərlə maraqlanıb, Qax rayonunun Qaşqaçay kəndində daşdan təmizlənmiş sahədə salınmış intensiv fındıq bağlarına baxış keçirib.

Nazir İnam Kərimov Şəkidə həmçinin Şəki Regional Aqrokimya Laboratoriyasının və yeni fəaliyyətə başlayan baytarlıq laboratoriyasının fəaliyyəti ilə də tanış olub. Bu laboratoriyalarda son model avadanlıqlar quraşdırılıb. Bölgələrdə bu cür müasir laboratoriyaların qurulması fermerlərə göstərilən aqrar məsləhət xidmətlərinin daha da təkmilləşdirilməsinə kömək edəcək.

## Azərbaycan “CyberTech Global 2021” konfransında təmsil olunur

Azərbaycan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Dubay hökumətinin və “Cybertech”in birgə təşkilatçılığı ilə Dubayda keçirilən beynəlxalq “CyberTech Global 2021” sərgi-konfransında təmsil olunur.

AZƏRTAC tədbirin rəsmi səhifəsinə istinadla xəbər verir ki, aprelin 7-dək davam edəcək “CyberTech Global 2021” sərgi-konfransında rəsmi şəxslərin, güc strukturlarının nümayəndələrinin və BƏƏ-nin iri şirkətlərinin rəhbərləri iştirak edirlər. Tədbir təşkilatçılarının fikrincə, hazırda dünyada bir çox sahədə tətbiq olunan onlayn xidmətlər və rəqəmsal asılılığın artması kibertəhlükəsizlik baxımından yeni problemlər yaradıb. Kibercinayətlər daha mütəşəkkil və gəlirli olmaqla yanaşı, fərdlər və millətlər üçün risk səviyyəsini artırıb.

Mütəxəssislər 2021-ci ilin hücumların təkcə artmaqda deyil, getdikcə daha təsirli olacağı ilə birlikdə əhəmiyyətli bir keçid və artan təhdidlər ili olacağını təxmin edirlər. Kibertəhlükələrə necə yanaşmaq, davamlı kibertəhlükəsizliyin təmin olunduğu məkanın yaradılması, nüvə və digər həssas infrastrukturların müdafiəsi builki konfransın əsas mövzularından olacaq.

Tədbirə Azərbaycan, Səudiyyə Ərəbistanı, Misir, Qətər, Mərakeş, Slovakiya və Xorvatiya da daxil olmaqla, 50-dən çox ölkədən nümayəndə heyətləri toplaşıb. Qlobal kibertəhlükəsizliyin aparıcı simaları “Cybertech Global Dubai”da iştirak edir.

Qeyd edək ki, sayca 8-ci “CyberTech Global” tədbiri bu günədək yalnız İsrailin paytaxtı Təl-Əvivdə keçirilib.

## Azərbaycanda elektron ticarət platformalarına xidmət göstərəcək vahid logistika mərkəzi yaradılacaq



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu “Azexport.az” portalı və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Azərpoçt” MMC-nin nümayəndələri arasında onlayn görüş keçirilib.

Görüşdə “Azərpoçt” MMC-nin Biznes inkişafı, marketinq departamentinin direktoru Anar Məcidov təmsil etdiyi qurumun xidmətləri barədə ətraflı məlumatlar təqdim edib. Qeyd olunub ki, hazırda ölkə ərazisində “Azərpoçt”un 1500-dək poçt şöbəsi mövcuddur. Qurum tərəfindən poçt xidmətləri ilə yanaşı, maliyyə xidmətlərinin də göstərildiyi vurğulanıb.

“Azexport.az” portalının rəhbəri Ayxan Qədəşov “Azərpoçt” tərəfindən təqdim olunan xidmətlərin ölkədə elektron ticarət sahəsinin diversifikasiyasında əhəmiyyətli rol oynadığını bildirib. Bu sahədə fəaliyyət göstərən sahibkarların qeyd olunan xidmətlərin üstünlükləri barədə məlumatlandırılması məqsədilə birgə tədbirlərin təşkil olunması təklif olunub. Daha sonra Azərbaycanda elektron ticarət platformalarına xidmət göstərəcək vahid logistika mərkəzinin qurulması istiqamətində atılan addımlar barədə müzakirələr aparılıb.

Onlayn müzakirə zamanı “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin rəhbəri Nicat Hacızadə təqdim olunan xidmətlər barədə məlumatlar təqdim edib. Elektron ticarətin inkişafı məqsədilə qurumlar arasında əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Rəqəmsal Ticarət Qovşağının rəhbəri Məsumə Talıbova isə Onlayn Vahid İxrac ərizəsi xidməti barədə məlumatlar təqdim edib. O, qeyd olunan xidmətdən istifadə etməklə elektron ticarət əməliyyatlarının daha da sürətləndirilməsi imkanının mövcud olduğunu vurğulayıb.

## Çendu şəhərində Azərbaycanın şərabçılıq mədəniyyətinə dair master-klas keçirilib

Azərbaycan şərablarının Çinin alkoqollu içkilər sahəsində ən nüfuzlu sərgiləri hesab edilən “Spring Taowine” və Çin qida və içkilər sərgisində (CFDF) nümayişi çərçivəsində Sıçuan vilayətinin paytaxtı Çendu şəhərində Azərbaycanın şərabçılıq mədəniyyətinə həsr edilmiş master-klas keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəliyinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı, Azərbaycan məhsullarının Çinə idxalı ilə məşğul olan Çinin “Sino-Foreign Economic Cooperation” şirkətinin dəstəyi ilə baş tutan master-klasda 100-dək iştirakçı, o cümlədən Çinin tanınmış şərab ekspertləri, idxalçılar və şərab şirkətlərinin təmsilçiləri qatılıb.

Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu iki ölkə arasında ticari-iqtisadi münasibətlər barədə danışarkən qeyd edib ki, Çin Baş Gömrük Administrasiyasının statistikasına əsasən, ötən il Azərbaycanın Çinə şərab ixracı 16 faiz artıb. O bildirib ki, Çin bazarında dünyanın müxtəlif ölkələrindən olan şərabçılıq məhsulları arasında böyük rəqabət olsa da, yüksək keyfiyyətə və əlverişli qiymətə sahib olan Azərbaycan şərablarının bu bazarda uğur əldə etməsi kifayət qədər realdır.

Ticarət nümayəndəsi 2019-cu ildə Şanxay şəhərində keçirilmiş nüfuzlu IWC (International Wine Challenge) şərab yarışında Azərbaycan şərablarının 30-dan çox müxtəlif mükafat qazandığını xüsusi vurğulayıb. O, Sıçuan vilayətində Azərbaycan məhsullarının, eləcə də şərablarının satışının artırılması və təşviqinin genişləndirilməsi məqsədilə yaxın zamanda Çendu şəhərində Azərbaycan ticarət evinin açılmasının planlaşdırıldığını bildirib.

Çinin “Sino-Foreign Economic Cooperation” şirkətinin vitse-prezidenti Van Doncian təmsil etdiyi şirkətin Azərbaycandan 100 növdən çox məhsul idxal etdiyini və bu idxalın getdikcə daha da genişlənəcəyini deyib. O, Çinin müxtəlif şəhərlərində şirkət tərəfindən açılmış və açılması planlaşdırılan Azərbaycan ticarət evləri haqqında geniş məlumat verib.



Sonra Böyük Britaniyanın Şərab Ustaları İnstitutunun (Institute of Masters of Wine) dünya miqyasında 416 xüsusi lisenziyalı məşhur şərab somelyelərindən biri, bu lisenziyaya sahib olan və hazırda Çində yaşayan 5 somelyedən biri olan britaniyalı Kassidi Dart təqdimatla çıxış edərək Azərbaycan şərabçılığının tarixi, inkişafı və potensialı haqqında danışıb. Bildirib ki, Azərbaycan şərabçılıq mədəniyyətinin 7 min ilə yaxın tarixi var, hətta yunan tarixçi Strabon da o dövrdəki Qafqaz Albaniyasında üzümün yetişdirilməsi haqqında geniş məlumat verib. Qeyd olunub ki, “Kitabi-Dədə Qorqud” dastanında da Azərbaycanın şərabçılıq mədəniyyəti haqqında danışılır.

K.Dart Azərbaycanın yerli üzüm növləri olan “Mədrəsə” və “Bayan Şirə” haqqında da ətraflı məlumat verib.

Sonda tanınmış somelye 5 növ üzüm və bir növ nar şərabının dequstasiyasını keçirərək hər bir şərab növü haqqında öz fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Qeyd edək ki, Azərbaycanın şərab və digər alkoqollu içkilərinin də nümayiş olunduğu Çendu şəhərində “2021 Spring Taowine” sərgisi davam edir. Aprelin 7-9-da isə məhsullarımız 104-cü CFDF sərgisində “Made in Azerbaijan” vahid ölkə stendində nümayiş etdiriləcək.

# Möhtəşəm Qələbədə həkimlərimizin xidmətləri danılmazdır

Azərbaycan Ordusunun 2020-ci ilin payızında işğalçı, təcavüzkar, terrorçu erməni silahlı birləşmələrinin 28 il ərzində əsarətdə saxlayıb, insanlıqdan kənar bütün əməllər törədərək talan etdikləri tarixi torpaqlarımızı azad etdiyi 44 günlük müharibə bir sıra önəmli, yaddaqalan məsələlərlə tariximizə yazıldı.





Ölkəmizin ərazi bütövlüyünün bərpasında Qarabağımızın və onun ətrafında illərdir ki, işğala məruz qalan torpaqlarımızın təcavüzkarlardan azad edilməsində xalq-hakimiyyət-ordu birliyinin şahidi olduq. Bu birlik, əlbəttə, dövlət başçısının xalqa sədaqətini, ölkə vətəndaşlarının Prezidentə olan inamının bir daha təsdiqi oldu.

Bu inam yaşından, siyasi baxışlarından, eləcə də sosial mənşəyindən asılı olmayaraq, hər bir kəsi cəbhəyə səfərbər etdi. “Dəmir yumruq”la diplomatiyanın vahid mərkəzdən idarə olunması Ali Baş Komandanın əmrinə hər an hazır olan əsgər və zabitlərimizi ancaq irəliyə səslədi. Həmin günlərdə bu sıraya qoşulanların arasında könüllü gənclərin vətənpərvərliyi, həkimlərimizin isə hər iki - ön və arxa cəbhədəki fədakarlıqları heç vaxt unudulmayacaq.

Belə gənclərimizdən biri də həkim Calalov Mirhaşım Rəhim oğludur ki, 1984-cü ildə Bakı şəhərində anadan olub. 2000-2006-cı illərdə Azərbaycan Beynəlxalq Universitetinin Müalicə işi fakültəsində təhsil alan Mirhaşım Calalov ali məktəbi fərqlənmə ilə başa vuraraq, Respublika Klinik Uroloji Xəstəxananın Hemodializ şöbəsində nefrologiya üzrə internatura kursunu da keçib. Bu tibb mərkəzində Mirhaşim müxtəlif vəzifələrdə çalışmaqla yanaşı, həkim-nefroloq ixtisası üzrə mütəxəssis kimi də yetişib.

2013-cü ildən ötən ilin sentyabr ayına qədər Kliniki Tibbi Mərkəzin Hemodializ şöbəsinin müdiri vəzifəsində çalışan Mirhaşım Calalov Səhiyyə Nazirliyinin hemodializ üzrə komissiyasının üzvüdür. Peşəsinin sirlərinə dərindən bələd olmağı qarşısına məqsəd qoymuş həkim elmi axtarışları da unutmayıb. Bunun nəticəsidir ki, o, hemodializ xəstələri üçün məlumat kitabçasının həmmüəllifidir. Bir neçə elmi konfransın iştirakçısı, Kliniki Tibbi Mərkəzdə Yeni Azərbaycan Partiyası dayaq nöqtəsinin sədr müavini olan M. Calalov 2020-ci ilin sentyabr ayından Mərkəzi Neftçilər Xəstəxanasının Hemodializ şöbəsinin müdiridir.

Təcavüzkarların işğalına son qoyan 44 günlük Vətən müharibəsində üzərinə düşən borcu yerinə yetirmək üçün 4 oktyabr 2020-ci il tarixində hərbi vəziyyətlə əlaqədar Ağcabədi Mərkəzi Rayon Xəstəxanasına könüllü şəkildə ezam olunub. O dedi: “Müharibə, adından da məlum olduğu kimi, dinc həyatdan uzaq, ölüm-itim, qan-qada, düşmən üzərində qələbə çalmaq üçün hər an təhlükə deməkdir. Lakin bizim ötənilki 44 günlük döyüşlərimiz Vətənimizin işğalda qalan, təcavüzkarlar tərəfindən odlara qalanan, əhalisi 30 ilə yaxındır ki, qaçqın-köçkün düşən, əsir aparılan xalqın öz haqqını geri qaytarması demək idi. Bunun üçün dövlət başçısı, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin bir çağırışı ilə ön cəbhəyə könüllü getmək hər bir gəncin, eləcə də yaşından, vəzifəsindən asılı olmayaraq ölkə vətəndaşlarının borcuna çevrildi. Bu, düşməni və onun havadarlarını çaş-baş saldı. İnanmırdılar ki, hətta ağır silahlardan istifadə etmədən Azərbaycanın mədəniyyət paytaxtı Şuşanı ordumuzun cəngavər döyüşçüləri fəth edə bilərlər. Bu ağlagəlməz döyüşlər düşməni diz çökməyə vadar etdi. Bəli, biz ön və arxa cəbhədə yaratdığımız birliklə düşmənə qalib gəldik. Bu müharibədə həkim və ümumiyyətlə, tibbi personalın üzərinə daha böyük məsuliyyət düşürdü. Yaralılarımızı amansız və vaxtsız ölümün əlindən xilas etməklə, biz eyni zamanda döyüşən ordunun yanında olurduq. Axı təcili xəstəxanaya çatdırılan əsgər və zabitlərimiz yaraları tamamilə sağalmadan belə ön cəbhəyə qayıtmağa can atırdılar...”

Mirhaşım Calalov həmin ağır günlərdə ön cəbhəyə yaxın olan Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına könüllü gedənlərdən biri kimi, orada gördükləri bəzi məqamlarla qürur duyduğunu gizlətmir. Deyir ki, həkimlərimiz hər an belə vəziyyətə hazır olmalıdır: “Biz əsgər və zabitlərimizin yanında olmaqla, onları həyata qaytarmaqla həm də qələbəyə öz payımızı vermiş olurduq...”

Bəli, gənc həkim Mirhaşım Calalov məhz belə xidmətləri sayəsində bu ilin fevral ayında Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı yaralı və xəstələrin müayinə və müalicəsində fədakarlıq göstərdiyinə görə “N” saylı hərbi hissənin komandiri tərəfindən fəxri fərmanla təltif olunub.

Bu da müharibənin qəhrəmanlarından biri: Möhtəşəm Qələbədə Mirhaşım Calalov kimi həkimlərimizin ön və arxa cəbhədəki xidmətləri danılmazdır.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# Koronavirusla mübarizədə müəyyən tədbirlərin görülməsi zərurəti yaranıb

## Qlobal miqyasda artıq altıncı həftədir ki, COVID-19 infeksiyasına yoluxma halları artmaqdadır

***Əvvəli 1-ci səh.***

Orada qeyd edilənlərə görə, SARS-CoV-2 virusu ilkin olaraq yarasalarda yaranıb və insana birbaşa deyil, aralıq daşıyıcı olan digər heyvanlar vasitəsilə keçib. ÜST-ün hesabatında pandemiyanın yaranma səbəbi kimi “laboratoriya qəzası” tezisinin mümkün olmadığı bir daha xüsusi qeyd edilir.

Bir sözlə, bu gün insanları artıq virusun yaranması yox, onun pandemiya kimi həyatda yaratdığı təhlükənin nə vaxta kimi davam etməsi maraqlandırır.



Təəssüflə qeyd edilməlidir ki, belə bir ciddi narahatlıq olduğu halda, insanların istər özünü qoruması, istərsə də vaksinasiyaya münasibəti birmənalı şəkildə ürəkaçan deyil. Bura əhalinin sosial məsafə saxlamaması, tibbi maskadan çox hallarda istifadə etməməsi, gizli şəkildə yas mərasimlərinin və ya toy şənliklərinin keçirilməsi, ictimai nəqliyyatdakı yoluxmaya daha çox səbəb olan basabaslara və antisanitariyaya göz yumması kimi halları da əlavə etsək, real vəziyyət göz önündə canlanar.

Daşıyıcının kimliyindən asılı olmayaraq, virus bir ildən çoxdur ki, planeti öz çənginə almaqla yanaşı, yeni mutasiyalara da uğrayır. Böyük Britaniyada ortaya çıxan koronavirusun daha yüksək yoluxdurma imkanına malik olma variantı 100-dən çox ölkədə qeydə alınıb. Cənubi Afrikada tapılan ştammın coğrafiyası 60 ölkədən də artıq ərazini əhatə edir. Mövcudluğu əvvəlcə Braziliya və Yaponiyada aşkar edilən virus ştammı hazırda 32 ölkədə yayılıb. İsrail Səhiyyə Nazirliyi də ölkədə koronavirusun mutasiyaya uğramış yeni növünün tapıldığını açıqlayıb.

Bütün bunlar o deməkdir ki, koronavirusun yayılmasının qarşısının alınması nə qədər mümkünləşməyib, vaksinasiya və peyvəndləməyə daha ciddi ehtiyac duyulur. Azərbaycan dövlətinin öz vətəndaşlarının sağlamlığının təmin edilməsi istiqamətində yürütdüyü sosial siyasət, xüsusən də pandemiyanın qarşısının alınması istiqamətində ötən ilin fevral ayından başlayaraq həyata keçirdiyi qabaqlayıcı və profilaktik tədbirlər beynəlxalq aləmdə nümunə olaraq göstərilir. Bu günlərdə o da məlum olub ki, ölkəmiz peyvəndlənmə prosesində MDB üzrə ön sıradadır, baxmayaraq ki, hələ bəzi vaksinlərin ölkəmizə göndərilməsində istehsalçı şirkətlər bağlanan müqavilələrə vaxtında əməl etmirlər.

Dünyada olduğu kimi, respublikamızda da peyvəndlərin kimlərə vurulması, yaxud vurulmaması barədə hələ də suallar özünün cavabını tam, dolğun almadığı üçün bu prosesə laqeyd yanaşanlar da az deyil. “Kimlər peyvənd vurdura bilməz? Vaksinasiya üçün hansı əks göstəricilər var?” Bu kimi suallar ölkə əhalisinin müəyyən qismini narahat etməkdədir.

Bu və digər məsələlərlə bağlı fikrini bildirən Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayevanın fikrincə, dünyada, o cümlədən ölkəmizdə heç olmazsa əhalinin 60 faizdən çoxu qısa müddət ərzində kütləvi şəkildə vaksinasiya olunarsa, bu zaman təsirli nəticədən danışa bilərik: “Bəzi vətəndaşlar elə düşünürlər ki, vaksin olunandan sonra bu infeksiyadan 100 faiz qorunmuş olacaqlar və daha izolyasiya qaydalarına riayət etməyə, maska taxmağa, gigiyena qaydalarını, sosial məsafə prinsiplərini gözləməyə ehtiyac qalmayacaq. Bu tamamilə yanlış fikirdir. Çünki əhali arasında hələ də xəstəlik keçirməyənlər, həssas qruplar var. Biz virus daşıyıcısı ola bilərik. Peyvənd tətbiq olunduğu gündən bir ay keçəndən sonra qoruyuculuğunu göstərməyə başlayır. Belə ki, ilkin doza tətbiq olunur. Ondan 21 gün sonra ikinci doza vurulur. İkinci dozadan təxminən 10 gün sonra müəyyən qədər qoruyucu hesab olunmaq olar. Çünki orqanizmə yeridilən vaksin immun sisteminə təsir göstərir və müəyyən immun zülalların formalaşmasına kömək edir. Formalaşma prosesi də müəyyən qədər vaxt alır. Odur ki, vaksin vurdurandan dərhal sonra onun effekt göstərməsi mümkün deyil”.

Azərbaycanın Çin istehsalı olan “Sinovac” şirkətinin peyvəndinə üstünlük verdiyini xatırladan N. Mustafayeva onu da vurğulayıb ki, ikitərəfli danışıqlar davam etdirilir, yaxın gələcəkdə ölkəmizə digər vaksinlərin də gətirilməsi nəzərdə tutulub: “Ümid edirəm ki, ilin sonunadək başqa vaksinlərdən də faydalanmaq imkanımız olacaq”.

Həkim-infeksionist onu da bildirib ki, dünyanın hər yerində COVID-19 və ya başqa xəstəlik əleyhinə peyvənd üçün məcburiyyət yoxdur. Ölkəmizdə də bu proses tam könüllü əsaslarla aparılacaq: “Məcburiyyət olmasa da çalışırıq ki, insanları maksimum şəkildə bu prosesə cəlb edək. Vətəndaşlara vəziyyəti düzgün izah etməklə onların könüllülüyünü təmin etmək lazımdır. Dünyada bir qrup şəxslər var ki, peyvəndləmə prosesinin qəti əleyhinədirlər. Bu, peyvəndin yan təsirləri ilə bağlıdır. Peyvəndin yüngül və ciddi yan təsirləri var. Yüngül yan təsirlərə peyvənd olunan nahiyədə qızartı, şişkinlik, müəyyən istilik, ümumi bədən temperaturunun yüksəlməsi, halsızlıq aiddir. Vaksin orqanizmdə müəyyən xəstəlik əlaməti formalaşdırmalıdır ki, ona qarşı immun sistemimiz aktivləşsin və immunitet formalaşsın. Bu hallar bir neçə gün ərzində baş verə bilər və əhəmiyyətsizdir. Ciddi yan təsirlərə anafilaktik şok, yəni allergik reaksiya aiddir ki, o da ilk 30-40 dəqiqə ərzində baş verir. Onsuz da peyvənd olunanlar 20-30 dəqiqə müddətində vaksin vurdurduqları məntəqədə gözləmə zalında nəzarətdə olacaqlar. Bu da çox nadir hallarda ölümlə nəticələnir. Yəni bu, milyonda bir halda baş verə biləcək hadisədir”.

Həkim deyir ki, belə hal daha çox əks-səda doğuracaq, nəinki peyvəndin müsbət tərəfləri. İstənilən dərman preparatına qarşı da insanda allergik reaksiya, anafilaktik şok baş verə bilər. Təəssüf ki, insanlar peyvəndin və ya hansısa dərman vasitəsinin yaxşı tərəfini düşünmürlər. Yəni kimsə peyvənd olundu və xəstələnməyərək faydasını gördüsə, bu barədə deyil, xəstələndisə və ya hansısa reaksiya, yan təsir baş verdisə onu yadda saxlayır. Bu da əhali arasında sürətlə yayılır. Bu münasibət COVID-19 xəstəliyinə qarşı da var. Daha çox bu xəstəlik səbəbindən vəfat edənlərin sayını yadda saxlayırlar. Sağalanların sayı diqqətdən kənarda qalır. İnsanlar arasında təşvişə səbəb olan da məhz belə neqativ hallardır. 18 yaşına qədər uşaqlara peyvənd vurdurmaq olmaz, çünki onlar üzərində sınaqlar həyata keçirilməyib və nəticələr yoxdur. Ona görə də onlar özlərini yoluxmadan daha yaxşı qorumalıdırlar. COVID-19 xəstəsi olanlar yalnız sağaldıqdan sonra peyvənd oluna bilərlər. Hamilə qadınlara xüsusilə ilk trimestrdə vaksin vurdurmaq tövsiyə olunmur. Onlarda risk qiymətləndirilməsi aparılmalıdır. Əgər risk qrupundadırlarsa, yanaşı xəstəliyi ağır keçirmə ehtimalları varsa, işi ilə əlaqədar olaraq insanlarla çox sıx təmasdadırlarsa, bu halda növbəti trimestrlərdə hamilələrin həkimləri ilə məsləhətləşərək onlara vaksin vurula bilər. Ciddi immunsupressiv vəziyyətdə olanlara, məsələn, orqan transplantasiyası keçirən xəstəyə peyvənd vurulmasına dair qəti əks-göstəriş yoxdur. Həmin şəxslər risk qrupuna daxildirlərsə, onlar həkimləri ilə məsləhətləşmədən və immun statusları dəyərləndiriləndən sonra peyvənd oluna bilərlər.

***M.NƏRİMANOĞLU, “Azərbaycan”***







# ÜST-ün baş direktoru “Twitter” hesabında Azərbaycan Prezidenti ilə videokonfrans formatında görüşü ilə bağlı paylaşım edib

Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus şəxsi “Twitter” hesabında aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə videokonfrans formatında görüşü ilə bağlı paylaşım edib.

AZƏRTAC-ın məlumatına görə, baş direktor paylaşımında görüşdə COVID-19 pandemiyası ilə mübarizədəki maliyyə yardımına, Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığa, peyvəndlərin ədalətli şəkildə bölüşdürülməsindəki dəstəyinə və Qoşulmama Hərəkatının üzvləri arasındakı həmrəyliyə görə Azərbaycana təşəkkür etmək imkanının olduğunu bildirib.


Твит
Tedros Adhanom Ghebreyesus
@DrTedros
In my call with @presidentaz earlier this week, I also took the chance to thank him for 's financial support to the global #COVID19 response, collaboration with @WHO, advocacy for #VaccinEquity & solidarity among the Non-Aligned Movement members.
twitter.com/drtedros/statu...

# COVAX platforması vasitəsilə ölkəmizə “AstraZeneca” tərəfindən istehsal olunan 84 min doza COVID-19 peyvəndi gətirilib

Aprelin 4-də COVAX platforması vasitəsilə Koreya Respublikasından ölkəmizə COVID-19 vaksinlərinin ilk partiyası gətirilib.



“AztraZeneca” şirkətinin istehsal etdiyi 84 min doza peyvəndini daşıyan təyyarə Heydər Əliyev Beynəlxalq Hava Limanında eniş edib.

AZƏRTAC xəbər verir ki, vaksini gətirən təyyarəni BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam M.İshaqzai, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, UNICEF-in (BMT-nin Uşaq Fondu) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Edvard Karvardin, səhiyyə nazirinin müavini Viktor Qasımov və digər rəsmilər qarşılayıb.

Kestutis Yankauskas jurnalistlərə açıqlamasında Azərbaycan hökumətinin vaksinasiyanı erkən başlatmaqla çox uğurlu iş gördüyünü vurğulayıb: “Gələcəkdə digər peyvəndlərin də çatdırılması peyvənd seçiminə imkan verəcək. Vaksinlərlə bağlı töhfə verənlərin hamısına - Ümumdünya Səhiyyə Təşkilatına, UNICEF-ə və COVAX mexanizminə dəstək verən digər ölkələrə təşəkkürümüzü bildiririk. Mən yalnız hər kəsi ən uyğun zamanda vaksinasiya üçün müraciət etməyə çağıra bilərəm. Çünki bu, COVID-19-la mübarizənin ən yaxşı yoludur”.

Öz növbəsində, Viktor Qasımov ümumilikdə “AstraZeneca” şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin mayın sonunadək Azərbaycana idxalının nəzərdə tutulduğunu bildirib: “Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində yeni növ koronavirus infeksiyasını (COVID-19) idarə olunan səviyyədə saxlamaq mümkün olub”.

Nazir müavininin sözlərinə görə, xəstəliklə mübarizədə effektiv üsul peyvəndləmədir və bunun üçün ölkəyə peyvənd gətirilməlidir: “Buna nail olmaq üçün Azərbaycanda həm ikitərəfli, həm də multiplatforma çərçivələrində addımlar atılıb. Artıq Çin istehsalı olan peyvəndlər ölkəyə gətirilib. Bu gün isə COVAX platforması çərçivəsində “AstraZeneca” şirkətinə məxsus 84 000 doza COVID-19 vaksin dərman vasitəsi gətirilib. Bu, ilk partiyadır. Əhalimiz nə qədər tez peyvənd olunsa, kollektiv immunitet yaransa, biz bu COVID-19 bəlasından o qədər tez xilas olacağıq”.

Viktor Qasımov həmçinin qeyd edib ki, Azərbaycanın ehtiyatda 1 milyon doza vaksini var və ölkədə gün ərzində 30-35 min insan peyvənd olunur: “Bildiyiniz kimi, yanvarın 18-dən etibarən Azərbaycanda vaksinasiya prosesinə start verilib. Birinci dozadan 600 min şəxs, ikinci dozadan isə 300 min şəxs peyvənd olunub. Bu prosesdə məqsədimiz ölkə əhalisinin 60-70 faizini peyvəndləməkdir”.

# Sağlamlıq imkanları məhdud uşaqlar 18 yaşına çatanda onlara əlillik dərəcəsi verilməsi qaydası

Sağlamlıq imkanları məhdud uşaqlar 18 yaşına çatdıqda onların bu statusu başa çatır.

Qanunvericiliyin tələbi və beynəlxalq təcrübəyə uyğun olaraq, zəruri prosedur kimi 18 yaşdan sonra həmin uşaqlara müvafiq əlillik dərəcəsi təyin edilməlidir.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bir çox hallarda valideynlər bu barədə məlumatsız olduqlarına görə sağlamlıq imkanları məhdud uşaqları 18 yaşına çatdıqda sosial ödənişlərin dayanmasını uşaqlarının əlilliyinin ləğvi kimi başa düşürlər. Ona görə də valideynlər uşaq 18 yaşına çatdıqda qanunvericiliyə müvafiq olaraq ərazi səhiyyə müəssisəsinə müraciət etməli və uşağa əlillik dərəcəsi verilməsi üçün alınan göndəriş (Forma 88) səhiyyə müəssisəsi tərəfindən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin e-sisteminə daxil edilməlidir.

E-sistemə daxil edilən göndərişdə onu daxil edən səhiyyə müəssisəsini, şəxsləri, eyni zamanda göndərişin aid olduğu şəxsi müəyyən etməyə imkan verən bütün məlumatlar adsızlaşdırılaraq kodlaşdırılır. Beləliklə, yalnız göndərişdəki xəstəlik məlumatları əsasında obyektiv və şəffaf şəkildə əlillik dərəcəsinin təyin olunub-olunmamasına dair qərar qəbul edilir.

# Ermənistanda yoxsulluğun səviyyəsi kəskin artır

***Əvvəli 1-ci səh.***

Sakinlərdən Edqar Minosyan bildirir ki, ölkəsinin yaşadığı problemlərin kökündə keçmiş hakimiyyət təmsilçilərinin böyük rolu var. Qeyd edir ki, sabiq prezident Serj Sarkisyan 2018-ci ilə kimi hakimiyyətdəki yerini möhkəmləndirməkdən başqa heç nə etməyib: “Doqquz ildə hərbi xunta Ermənistanı səfillərin ölkəsinə çevirib. Ölkədə heç bir irimiqyaslı layihə həyata keçirilməyib. Əhalinin yaşayış səviyyəsi həddindən artıq ağırdır. Ermənistanın dövlət borcu 8 milyardı dolları ötüb. Durmadan artan bu rəqəm ölkəni iflic vəziyyətinə gətirib çıxaracaq. Son 13 il ərzində ölkədə yoxsulluğun göstəricisi rəsmi olaraq 30 faizi ötüb. Amma bunlar rəsmi rəqəmlərdir, əslində, yoxsulluğun real səviyyəsi 40 faizi keçir”.

Hazırda sosial şəbəkələrin erməndilli seqmentində yayılan və olduqca böyük marağa səbəb olan videokadrlardan biri də ermənilərin Rusiyadan olan bloggerə verdiyi açıqlamalardır. Ermənistana səfər edərkən orada yerli vətəndaşları danışdıran bloggerə sadə ermənilərdən biri deyir: “Burada iş yoxdur, pis yaşayırıq, hər kəs qaçıb gedir Rusiyada və digər ölkələrdə bazarlarda, küçələrdə işləyir. Hər kəs müharibədən sonrakı şəraitsizlikdən, işsizlikdən bezib. Sovet dövründə yaşamaq olurdu, pul, iş var idi, insanlar burada yaşayırdılar, qaçmırdılar. Heç olmasa ət, kolbasa yeyə bilirdik, indi onlara da həsrət qalmışıq”.

Bütün bunlar müasir Ermənistanın reallığı sayılır və əvvəlki kimi vəziyyətdən çıxış yolu olaraq sadə insanlar imkan düşdükcə ölkəni birdəfəlik tərk edirlər. Əsasən də ermənilər daha çox Rusiyaya üz tuturlar.

Ermənistanda miqyası sürətlə genişlənən əsas problemlərdən biri də korrupsiyadır. Ölkədə açıq etiraf edilir ki, korrupsiya və rüşvətxorluq bir dövlət olaraq Ermənistanın tənəzzülünü daha da sürətləndirir. Hətta rəsmi dairələr belə dövlətin bütün strukturlarında dərin kök salmış korrupsiyanın miqyasının təhlükəli həddə qədər yüksəlməsini gizlətməkdə acizlik çəkirlər.

Sosial şəbəkə hesablarında açdığı canlı yayımlarda da Nikol Paşinyan korrupsiya və rüşvətxorluğun ölkəsi üçün kifayət qədər ciddi problem yaratdığını diqqətə çatdırıb, buna qarşı mübarizə aparıldığını bildirib. Lakin ölkə müxalifəti Ermənistan baş nazirinin açıqlamalarının gülməli xarakter daşıdığını və yalnız kütləyə hesablanmış fikirlər olduğunu bəyan edib. Ermənistan müxalifətinin nümayəndələri hakimiyyətə gəlməsindən 3 il keçməsinə baxmayaraq, artıq ölkənin baş nazirinin korrupsiyaya qarşı mübarizə aparılacağı haqqında söylədiklərinin xalqı ələ salmaqdan başqa heç bir məna daşımadığını bildirirlər.

Bu gün Ermənistanda baş verənlər ölkə daxilindəki proseslərə təsirsiz ötüşmür və cəmiyyətlə hakimiyyət arasında yaranmış uçurumu daha da dərinləşdirir. Bu isə Ermənistan cəmiyyətində parçalanmanı daha da sürətləndirir. Belə vəziyyətdə isə erməni politoloqlar ölkənin müstəqilliyinin də təhlükə altına düşməsi barədə həyəcan təbili çalırlar.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# "İsgəndər" müəmması

## Suallar çox, cavab isə hələ ki yoxdur

*Əvvəli 1-ci səh.*





Xatırladaq ki, hələ ötən ilin noyabrında Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi, bu ölkənin müdafiə nazirliyinin hərbi müfəttişliyinin rəhbəri olmuş general Movses Akopyan Qarabağda gedən müharibə zamanı Ermənistanın Azərbaycana qarşı "İsgəndər" operativ-taktiki raketləri tətbiq etdiyini bildirmişdi. Paşinyanın həyat yoldaşını bunkerdən çıxardığına görə gündəmə gələn Akopyanın keçirdiyi mətbuat konfransında jurnalistlər ondan müharibə zamanı Ermənistanın niyə "İsgəndər" komplekslərini tətbiq etmədiyini soruşublar. Onun cavabı isə belə olmuşdu: "Tətbiq edilib, amma deyə bilmərəm, hansı istiqamətdə".

Həmin vaxt bu məsələ geniş müzakirə mövzusuna çevrilmədi, ta keçmiş prezident Serj Sarkisyanın Paşinyanı "İsgəndər"ləri vaxtında tətbiq etməməkdə günahlandırmasına qədər. Onun sözlərinə görə, Ermənistan ordusu raketləri müharibənin sonunda Şuşanı geri almaq cəhdi zamanı tətbiq edib.

Paşinyanın S.Sarkisyanın ittihamlarına cavabı isə Ermənistanda yeni siyasi böhrana yol açdı. O böhrana ki, nəticədə Paşinyanı növbədənkənar seçkiləri keçirilməsi barədə qərar verməyə məcbur etdi. Belə ki, məsələyə "1in.am" saytına müsahibəsində aydınlıq gətirən Paşinyan Ermənistanın Azərbaycana qarşı "İsgəndər" əməliyyat-taktiki raket sistemindən istifadə etdiyini, lakin raketlərin partlamadığını deyib. "Qoy sual verilsin ki, "İsgəndər" raketi niyə partlamayıb? Və ya niyə 10 faiz partlayıb?"-deyə o bildirmişdi.

Bu cavab Rusiyanın hərbi siyasi-dairələrində təəccüb və hiddətlə qarşılandı. Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi, general İqor Konaşenkov bəyan etdi ki, Nikol Paşinyanın "İsgəndər" raketlərinin partlamaması, yaxud "10 faiz partlaması" barədə dediklərini təəccüb və anlaşılmazlıqla qarşılayıblar. Onun sözlərinə görə, Qarabağda "İsgəndər", ümumiyyətlə, tətbiq edilməyib və kompleksin bütün döyüş sursatı-raketlər hamısı Ermənistan ordusunun anbarlarındadır.

Bir sıra Rusiya siyasətçiləri və hərbi ekspertləri də Paşinyanın açıqlamasını kəskin tənqid etdilər. Baş nazirin açıqlamasını istehza ilə qarşılayan Ermənistan ordusunun baş qərargah rəisinin müavini Tiqran Xaçatryan isə buna görə vəzifəsi ilə vidalaşmalı oldu. Bütövlükdə, "İsgəndər" polemikası Ermənistanda ordunun Paşinyana qarşı bunt qaldırmasına və onun istefasını tələb etməsinə gətirib çıxardı. Baş nazirin növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə qərarı da "İsgəndər" polemikasının nəticəsidir.

### Şuşada tapılan qalıqlar "İsgəndər - M" versiyasına aiddir

Bu il martın 15-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən Şuşa şəhərində aparılan təmizləmə əməliyyatı zamanı iki müxtəlif yerdən raket qalıqları aşkarlanıb. Agentliyin operativ qərargahının rəisi İdris İsmayılov bildirib ki, aparılan tədqiqat zamanı raketin üzərində olan "9M723" indeks kodu yoxlanılıb. Məlum olub ki, bu, "İsgəndər" raket kompleksinin qalıqlarıdır. Həmin qalıqlar bir-birindən 780 metr məsafədə tapılıb. Aparılan son araşdırma nəticəsində qənaətə gəlinib ki, atılmış raket "İsgəndər" raket kompleksinin raketidir. Raketin uzunluğu 7 metr 23 santimetr, diametri isə 920 millimetrdir. Hazırda partlayış yerində və ətrafda ilkin tədqiqatlar aparılır.

Müharibənin başa çatmasından aylar sonra tapılan raketin qalıqları bəlkə də böyük maraq doğurmazdı, əgər onun indeks kodu aşkar edilməsəydi. Belə ki, aydın olub ki, raketin qalıqları Rusiyanın Ermənistana verdiyini və rəsmən açıqladığı "İsgəndər E" modifikasiyasına deyil, "İsgəndər"in daha uzaq mənzilli və nüvə başlığı daşıya bilən "İsgəndər-M" versiyasına aiddir. Yəni Şuşada tapılan raketin qalıqları göstərir ki, bu modifikasiya Rusiyanın Ermənistana verdiyi raketin modifikasiyasına uyğun gəlmir. Bu versiya 500 kilometr mənzilə malik ortamənzilli raketlər sinfinə aiddir. Həmin raketlərin isə ixracı 1987-ci ildə ABŞ ilə SSRİ arasında imzalanan "Yaxın və ortamənzilli raketlərin məhv edilməsi"nə dair müqavilənin tələblərinə tamamilə ziddir.

Təsadüfi deyil ki, bu raketlərin Ermənistana verilməsi rəsmi olaraq heç bir mənbədə əksini tapmayıb. Heç bir hərbi hesabatda "İsgəndər-M" versiyasının Ermənistana verilməsi barədə məlumat yoxdur.

Şuşa şəhərində və onun ətrafında həyata keçirilən minadantəmizləmə tədbirləri zamanı böyük dağıdıcı gücə malik "İsgəndər" raket kompleksinin raketinin qalıqlarının tapılması xarici medianın da gündəmindədir. Bununla bağlı xəbərlərdə Ermənistanın baş naziri N.Paşinyanın həmin raketlərin 10 faiz yararlı olduğu barədə fikirlərindən sitat gətirilir və bu faktın həqiqət olduğu qeyd edilir. Həmçinin bildirilir ki, bütün bunların fonunda maraqlı sual yaranır, əgər Rusiya Ermənistana "İsgəndər - M" raket kompleksi verməyibsə, Şuşada həmin raketin qalıqlarının tapılması necə izah oluna bilər?

### Erməni izi

Məsələ ilə bağlı kütləvi-informasiya vasitələrində yer alan məlumatlardan isə belə aydın olur ki, "İsgəndər-M" raketləri Ermənistana qanunsuz ötürülüb. Bu barədəki araşdırmada bildirilir ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin hərbi əks-kəşfiyyat Departamenti Ermənistana qanunsuz ötürülmüş və Qarabağda tətbiq edilmiş "İsgəndər-M" raketləri ilə bağlı təhqiqat başladıb. "Məlum olub ki, həmin raketlər Qırmızı bayraqlı, "Suvorov ordenli" Cənub hərbi dairəsinin anbarlarından qanunsuz əldə edilib, Livan və Rusiya bankları üzərindən ödəniş həyata keçirilməklə qeyri-leqal olaraq Ermənistana ötürülüb. Bu, Rusiya hərbi və xüsusi xidmət dairələri tərəfindən olduqca sərt cavab tələb edən situasiyadır", - deyə sayt yazır.

Qeyd olunur ki, ötən ilin payızında Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistana Rusiyadan qanunsuz silah təchizatı barədə bəyanatından sonra Rusiya Müdafiə Nazirliyinin bəzi məmurlarının bu işə cəlb olunması ilə bağlı xidməti araşdırma başladılıb. Araşdırma şok nəticələr üzə çıxarıb. Hərbi dairənin raket-artilleriya silahları anbarından verilmiş şübhəli qaimələr, hərbi-nəqliyyat aviasiyasının Ermənistana tərəf izahedilməz reysləri, nəhayət, Rusiyada yaşayan erməni biznesmen Karen Karapetyanın "metallom" qiymətinə aldığı İl-76 təyyarəsi əks-kəşfiyyat əməkdaşlarında şok effekti yaradıb.

"Rusiyadan muzdluların və silahların Qarabağa göndərilməsi, bəzi məmurların bank hesablarındakı köçürmələr barədə FTX-nin ərazi idarələrindən daxil olan məlumatlar bir infomasiya axınına cəmləşdirilib, ümumi mənzərə yaranıb.

Məlum olub ki, Cənub hərbi dairəsində Rusiyadakı erməni diasporu Ermənistana qeyri-leqal silah təchizatı üçün öz şəbəkəsini qurub. Rusiya Müdafiə Nazirliyinə yaxın mənbə deyib ki, erməni diasporunun və onunla bağlı olan adamların hərəkətləri bütün qırmızı xətləri keçib. İctimai-siyasi fəaliyyətlə bir araya sığmayıb və dövləti xəyanət sayıla bilər.

Tank əleyhinə raket kompleksləri, hava hücumundan müdafiə raket kompleksləri, onlara aid raketlər və ən azından üç "İsgəndər-M" raketi, üstəlik, minalar, patronlar, atıcı silahlar Rusiya hərbi dairəsinin anbarlarından iri miqyasda Ermənistana ötürülüb.

Pullarını isə Krasnoyarskdan, Krasnodar, Tula, Orlov vilayətlərindən, Moskva, Sankt-Peterburq və hətta Xabarovskdan olan erməni biznesmenlər öz hesablarından ödəyiblər. Ticarət mərkəzləri, tikinti kontorları, hər cür mallar satan erməni dükanları-hamısı bu sxemdə yer alıblar", - deyə bildirilir.

Ermənistanın silahlanmasında yer almayan raketlərin bu ölkəyə ötürülməsi tamamilə qanunsuz yollarla baş verib. Belə bir hadisənin sıradan avtomat patronu deyil, "İsgəndər-M" raketi ilə bağlı olması kifayət qədər ciddi və təəssüfdoğuran hadisədir. Ümid edirik ki, Rusiyanın müvafiq orqanları məsələni ciddi araşdıracaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vətən müharibəsi dövründə Azərbaycana qarşı "İsgəndər" raketindən istifadə edilməsi Ukrayna mətbuatında geniş işıqlandırılıb

Vətən müharibəsi dövründə böyük dağıdıcı gücə malik "İsgəndər" raketindən Azərbaycana qarşı istifadə olunması Ukrayna mətbuatında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Ukraynanın "Ukrinform", "İnterfaks-Ukrayna" İnformasiya agentlikləri, "Gordon" nəşri, "BBC News"un Ukrayna bürosu, dialog.ua, podrobnosti.ua, dialog.ua, eurointegration.com.ua, asmedia.kiev.ua, charter97.org, vybir.media, stopcor.org saytları dərc etdikləri məqalələrində, nüfuzlu "1+1" və "İnter" telekanalları isə yaydıqları reportajlarda qeyd edirlər ki, Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistanının "İsgəndər" raketlərindən istifadəsini isbatlayan qalıqları nümayiş etdirib. Raket qalıqlarının ANAMA tərəfindən martın 15-də Şuşa şəhəri ətrafında aparılan təmizləmə işləri zamanı aşkarlandığı vurğulanır.

Xəbərlərdə "İsgəndər" raketlərinin qalıqlarının fotoları da yer alıb. Həmçinin qeyd olunub ki, araşdırma zamanı raketlərin üzərində "9M723" kod indeksi tam yoxlanılıb.

Yazılarda Ermənistanın baş naziri N.Paşinyanın həmin raketlərin 10 faiz yararlı olduğu barədə fikirlərini sitat gətirib, bu faktın həqiqət olduğu qeyd edilib.

Bundan başqa, materiallarda Ukraynanın nüfuzlu blogerlərinin, hərbi ekspertlərinin sosial şəbəkələrdə Şuşa şəhəri ətrafında "İsgəndər" raketlərinin qalıqlarının tapıldığı barədə fikirləri də yer alıb.

# "AzerGold" QSC-nin Müşahidə Şurasının iclası keçirilib

Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2021-ci il tarixli Sərəncamına əsasən, tərkibi yenidən formalaşdırılmış "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin ("AzerGold" QSC) Müşahidə Şurasının 2021-ci il üzrə ilk iclası keçirilib.



"AzerGold" QSC-nin Mətbuat xitmətinin verdiyi məlumata görə, Müşahidə Şurasının sədri, Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Rövşən Nəcəfin sədrliyi ilə videoformatda keçirilən iclasda Müşahidə Şurasının üzvləri, "AzerGold"un İdarə Heyətinin sədri Zakir İbrahimov və İdarə Heyətinin digər üzvləri iştirak ediblər.

İlk olaraq "AzerGold"un Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Müşahidə Şurasının sədri R.Nəcəf iclasda vurğulayıb ki, "AzerGold" fəaliyyət göstərdiyi qısa müddət ərzində dağ-mədən sahəsində ciddi uğurlar qazanaraq, Azərbaycanın qeyri-neft sektorunun aparıcı ixracatçıları sırasında qərarlaşıb. Hazırda dövlət şirkəti yeni inkişaf dövrünə qədəm qoyur. Müşahidə Şurası qabaqcıl təcrübə və müasir idarəetmə tələbləri çərçivəsində cəmiyyətin fəaliyyətində səmərəliliyi artırmaq, onun idarə edilməsini müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək istiqamətində fəaliyyət göstərəcək. Müşahidə Şurası "AzerGold" QSC-nin İdarə Heyəti ilə əməkdaşlıq müstəvisində çalışacaqdır.

İclasda Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədi ilə həyata keçiriləcək tədbirlər, "AzerGold"un korporativ idarəetmə sisteminin prinsipləri, Müşahidə Şurasının fəaliyyətinin təşkili, şirkətin idarə olunmasında Azərbaycan İnvestisiya Holdinqinin rolu və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

## "Yaşıl Marafon" çərçivəsində ağacəkmə aksiyaları davam edir

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində növbəti ağacəkmə aksiyaları keçirilib.

AZƏRTAC xəbər verir ki, aprelin 5-də Bakının Qaradağ rayonu, Müşfiqabad qəsəbəsində 1200, Astara rayonunda isə 1000 könüllü gəncin iştirakı ilə ərazinin torpaq-iqlim şəraitinə uyğun müxtəlif növ ağac əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən layihənin əsas məqsədi yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirir.

Yaz və payız mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağacın əkilməsini hədəfləyən layihənin tərəfdaşları hər kəsi bu təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

## Ağdamın iki kəndində içməli su təchizatı sistemi layihəsi icra edilib

Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" üzrə Qrant Yardımı Proqramı çərçivəsində həyata keçirilən "Ağdam rayonu Çullu və Xındırıstan kəndlərində içməli su təchizatı sisteminin inşası" layihəsi başa çatıb.

Bu münasibətlə Ağdam rayonunun Xındırıstan və Çullu kəndlərində keçirilən mərasimdə Yaponiyanın Azərbaycandakı səfiri Vada Cüniçi, Ağdam Rayon İcra Hakimiyyətinin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağdam rayonu Çullu və Xındırıstan kəndlərində içməli su təchizatı sisteminin inşası layihəsinin ümumi məbləği 88 min 859 ABŞ dollarıdır. Layihənin məqsədi Ağdam rayonunun Çullu və Xındırıstan kəndlərinin hər birində bir subartezian quyusunu qazmaqla əhalinin içməli su ehtiyacının qarşılanması və sanitar vəziyyətinin yaxşılaşdırılmasına nail olmaqdır. Layihədən Xındırıstan və Çullu kəndlərinin ümumilikdə 4762 nəfər sakini bəhrələnəcək.

Yaponiyanın Azərbaycandakı səfiri Vada Cüniçi layihənin əhalinin içməli su təminatına töhfə verəcəyinə əminliyini bildirib: "Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" üzrə Qrant Yardımı Proqramı çərçivəsində Xındırıstan və Çullu kəndlərində subartezian quyusu qazılıb. Bu layihənin icrası nəticəsində hər iki kəndin əhalisinin digər kəndlərə su əldə etmək üçün getməsinə və ya suyu baha qiymətə almasına ehtiyac qalmadığını eşitdim və bu, məni çox şad etdi. Bundan sonra kənd əhalisindən subartezianlardan ehtiyatla istifadə etməsini və bu quyuların əhaliyə uzun müddət xidmət etməsini arzulayıram".

Kənd sakinləri həyata keçirilən layihələrə görə Yaponiya hökumətinə minnətdarlıqlarını bildiriblər.

Səfir Vada Cüniçi subartezian quyularını işə salıb və yeni inşa edilən bulaqdan su içib.

# Vəzifə səlahiyyətlərindən sui-istifadə edən daha bir şəxsin qanunsuz əməlləri ifşa edilib

Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial və iqtisadi islahatlar nəticəsində inşaat sektorunun inkişafı üçün yaradılmış münbit və əlverişli şəraitdən sui-istifadə və korrupsiya hüquqpozmalarına yol verilməsi hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, paytaxtın Nəsimi rayonunun Dilarə Əliyeva küçəsi, 141 ünvanında yerləşən yaşayış binalarının, habelə yerli əhəmiyyətli mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunan yaşayış evinin sökülməsi və yeni yaşayış binalarının tikintisinə dair "FF-2011" Mənzil Tikinti Kooperativinə qanunsuz icazə verilməsi faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla istintaqı aparılır.

Aparılmış istintaqla Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsi üzrə səlahiyyətlərinin icrası həvalə edilmiş Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparat rəhbəri vəzifəsində işləmiş Quliyev Rasim Vaqif oğlunun təşkilati - sərəncamverici funksiyaları yerinə yetirən vəzifəli şəxs kimi qanunsuz üstünlük əldə etmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının Nəsimi rayonu ərazisində ofis və yaşayış binalarının tikilməsinə dair 2018-ci il 31 may tarixli 346 nömrəli sərəncamını şəxsən imzalamasına, bununla da sözügedən MTK-nın həmin ərazidə 1893-cü ildə inşa edilmiş yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunan yaşayış evinin olmasını nəzərə almadan ayrı-ayrı fiziki şəxslərə məxsus olan mənzillərin, yaşayış və qeyri-yaşayış sahələrinin qanunsuz olaraq söküntüsünə başlamasına, habelə tikinti və söküntü işlərinin aparılmasının digər əsas şərtlərinin pozulmasına səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilənlər nəzərə alınmaqla, Rasim Quliyevə Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.


## "Azərişıq" ASC cəmiyyətə məxsus elektrik sayğaclarının optik göz vasitəsilə oxunub verilənlər bazasına inteqrasiya olunmasının təmin edilməsi üçün Proqram təminatının satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satrnalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödəniş etdikdən sonra müsabiqədə iştirak etmək olar.

LOT-1: "Azərişıq" ASC-yə məxsus elektrik sayğaclarının optik göz vasitəsilə oxunub verilənlər bazasına inteqrasiya olunmasının təmin edilməsi üçün Proqram təminatının satın alınması

İştirak haqqı - 500 manat
"Azərişıq" ASC
Hesab: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Əlaqələndirici şəxs - Vusal İsayev (telefon: 440-39-93, daxili (22-18))
vusal.isayev@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış; (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi) (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);
- iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 28 aprel 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 06 may 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 07 may 2021-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## "Azərişıq" ASC Müxtəlif növ ağır avtomexanizmlərin icarəyə götürülməsi məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə İştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

LOT-1
Müxtəlif növ ağır avtomexanizmlərin icarəyə götürülməsi
İştirak haqqı - 400 manat
"Azərişıq" ASC
Hesab No: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Əlaqələndirici şəxs - Səfaqət Səlimov (telefon: 440-39-93 daxili (24-28))
sexavet.selimli@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir. (İri sahibkarlıq subyektləri qanuna əsasən, elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi) (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır) (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);
- iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 26 aprel 2021-ci il saat 13:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 04 may 2021-ci il saat 13:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 05 may 2021-ci il saat 13:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 02 fevral 2021-ci il tarixli nömrəsində dərc edilmiş açıq tenderlərlə əlaqədar Tender komissiyasının 29 mart 2021-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının Yevlax şəhəri, Heydər Əliyev prospekti, 82 ünvanında yerləşən Ərazi İdarəsi üçün hava ilə soyudulan su soyutma qrupu (çiller) avadanlığının alınması və quraşdırılması işlərinin satın alınması üzrə “ESTET” MMC, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün dəftərxana mallarının satın alınması üzrə “OFİS PLUS” MMC, Azərbaycan Respublikası Mərkəzi Bankı üçün dezinfeksiya və qoruyucu vasitələrin satın alınması üzrə “LARİC CHEMİCAL” MMC, Azərbaycan Respublikası Mərkəzi Bankı üçün təsərrüfat mallarının satın alınması üzrə isə fiziki şəxs Rafiq Nəsibov qalib elan edilmişdir.

Qaliblərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## “Azərsu” ASC Ceyranbatan su anbarının suyunun emal olunması üçün membran texnologiyalı Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin ultrasüzgəc membranlarının satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (Podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-texniki tələb;
-ödəniş şərti;
-çatdırıma şərti;
-tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında “Azərsu” ASC-nin Satınalmaların təşkili şöbəsindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: Hikmət Qasımov, telefon +99412 431-47-67 (2249)

Tenderdə iştirak haqqı ***850 AZN və ya bu ekvivalentdə Avro və USD.***

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB33070019441100216111 AZN**
**H/h: AZ55AIIB33170018401100216111 USD**
**H/h: AZ35AIIB33170019781100216111 Avro**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- tenderdə iştirak haqqı ödənişini təsdiq edən sənəd;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 3 nüsxədə (1 nüsxə əsli və 2 nüsxə surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05 may 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 18 may 2021-ci il saat 17:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların təşkili şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 may 2021-ci il saat 17:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “MİngəçevIr şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2021-ci il üçün *kotirovka sorğusu elan edir*

1. Katriclərin dolumu, təmiri və barabanların dəyişdirilməsi.
2. Liftlərə dövri texniki xidmət.
3. Dezinfeksiya işləri.

Kotirovka sorğusunun başlama tarixi 06.04.2021-ci il
Kotirovka sorğusu ilə bağlı müraciətlər 12.04.2021-ci il saat 10:00-dək qəbul edilir.
Zərflərin açılşı 12.04.2021-ci il saat 14:00-da həyata keçiriləcək.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon nömrəsi: (+99455) 500 45 99; (+99455) 204 15 20**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yuyucu və təsərrüfat mallarının satın alınması ilə bağlı 02.04.2021-ci il tarixdə keçirilən elektron açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə əsasən, iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## İndoneziyada və Şərqi Timorda 52 nəfər həyatını itirdi



İndoneziyada və qonşu Şərqi Timorda yağan leysan yağışları sürüşmələrə və sellərə səbəb olub. Nəticədə azı 52 nəfər həyatını itirib. Bu barədə “İnterfaks” Agentliyi xəbər verir.

İndoneziyanın Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Agentliyinin məlumatına görə, ölkədə ən azı 41 nəfər həlak olub, 27 nəfər itkin düşüb. Şərqi Nusa-Tenqara əyalətinin Adonara adasında yerləşən Lamenele yaşayış məntəqəsində sürüşmə nəticəsində onlarca ev dağılmışdır. Yerli Fövqəladə Hallar Agentliyinin rəhbəri Lenni Olanın verdiyi məlumata əsasən, xilasedicilər dağıntılar altından 35 meyit və 5 yaralı çıxarıblar.

Oyan Bayan kəndində isə 40 ev dağılıb, 3 meyit tapılıb, yüzlərlə insan evlərini tərk etməyə məcbur olub. Vayburakda da 3 nəfər həlak olub. İtkin düşənlərin sayı isə 7-dir. Bunlardan başqa, Adonara adasında beş körpü dağılıb. Eyni zamanda sürüşmələr Şərqi Timorun paytaxtı Dilidə 11 nəfərin həyatına son qoyub.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi 11 saylı Ərazi Vergi Departamenti tərəfindən 27.04.2017-ci ildə Allahverdi Kərim oğlu Abdullayevin adına verilən, “ZƏHMƏT SV KƏNDLİ FERMER TƏSƏRRÜFATI” MMC-yə məxsus 4001967221 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.***

## Nigeriyada yüzlərlə məhbus həbsxanadan qaçıb



Nigeriyanın cənubundakı Overri şəhərində bir qrup silahlı şəxs həbsxanaya hücum edib. Hadisə nəticəsində yüzlərlə məhbus həbsxanadan qaçıb. Azı bir polis əməkdaşının həlak olduğu deyilir. Bu barədə yerli “Vanguard” qəzeti xəbər verir. Qeyd olunur ki, silahlılar həbsxana ərazisinə orduya məxsus nömrə nişanları olan avtomobillərdə yaxınlaşıblar. Hazırda bölgəyə əlavə qüvvələr yeridilib. Qaçan məhbusların axtarışları aparılır.

## Vyetnamın yeni Prezidenti seçildi

Vyetnam Sosialist Respublikasının Milli Məclisi bundan əvvəl Baş nazir olan Nquyen Suan Fuku ölkənin Prezidenti seçmişdir. Keçmiş hökumət başçısını parlament nümayəndələrinin 97,5 fazi dəstəkləyib. Bu barədə hökumət saytında məlumat verilir.

66 yaşlı Fuk 2016-cı ildən Vyetnamın Baş naziri vəzifəsində çalışıb. Onun rəhbərliyi ilə ölkədə ÜDM istehsalı 2015-ci illə müqayisədə 1,4 dəfə artıb, Vyetnam dünyanın ən güclü iqtisadiyyatına malik 40 ölkə sırasına daxil olub.

Nquyen Suan Fuk Vyetnamın hakim Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi postunda Nquyen Fu Çongu əvəz edib.


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 18 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və həmin tarixdə dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Fiziki təhlükəsizliklə bağlı avadanlıqların (Server) satın alınması üzrə **“Fominov Consulting”** MMC qalib olmuşdur.

Qalib şirkətlə 02 aprel 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 26 fevral 2021-ci il tarixli 44 (8637) saylı buraxılışında dərc olunmuş Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən “İstehlak yönlü müxtəlif xidmətlər” xərc maddəsi üzrə guşələrin yaradılması və bədii tərtibat işlərinin dəyərinin ödənilməsi, sənədlərin cildlənməsi və kartriclərin doldurulmasının və “Dəftərxana və təsərrüfat xərcləri” maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması ilə bağlı açıq tender elanında tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 07 aprel 2021-ci il saat 15:00-dək, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 15 aprel 2021-ci il saat 15:00-dək, zərflərin açılış tarixi və vaxtı 16 aprel 2021-ci il saat 15:00-dək uzadılmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Hikmət Məmmədova atası
**BABA MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı “91-lər”in nümayəndəsi
**ARİZ ABDULƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Daxili nəzarət və risklərin idarəedilməsi departamentinin direktoru Nəcbəddin Sofiyevə əzizi
**RƏHİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin deputatı Hikmət Babaoğluna atası
**BABA MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov “Gunay Bank” ASC-nin İT Departamentinin direktoru
**GÜNƏL SADIQOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Gunay Bank” ASC-nin rəhbərliyi və kollektivi İT Departamentinin direktoru
**GÜNƏL SADIQOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova bacısı
**AĞAZADƏ ALCANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Məmmədova atası
**BABA MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Statistika Şurasının üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya həyat yoldaşı
**NAİLƏ İSAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Ellada Axundovaya və Elfida Rəhmanovaya ataları
**NƏSİB QOCAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan” nəşriyyatının kollektivi “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədova atası
**BABA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya həyat yoldaşı
**NAİLƏ İSAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova bacısı
**AĞAZADƏ ALCANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı Hikmət Məmmədova atası
**BABA MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Leyla Talıbovaya anası
**XANIM ƏLƏKBƏR QIZI QURBANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya həyat yoldaşı
**NAİLƏ İSAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri
**AYDIN VƏLİ OĞLU HEYDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5102**
**Sifariş 615**
**Qiymәti 40 qәpik**